

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## ICAPP-ın 12-ci Baş Assambleyası başa çatıb



3

№ 216 (7141)

SƏS

24 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Quruculuq dövrünü yaşayan Kəlbəcərin Şəhər Günü




2

Prezident İlham Əliyev: "Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar"

# Avropadan qaçış, yoxsa Rusiyaya sığınmaq?



5

## "COP29 Azərbaycanın beynəlxalq müstəvidə etimad ediləcək dövlət olduğunu göstərdi"




13

## Su müharibəsi: qlobal su böhranı ilə mübarizədə real vəziyyət




15

## "Serial" xəstəliyi



10

## Dərmanları soyuducuda saxlamaq olarmı? - rusiyalı alim detalları açıqladı



16

## Niyə özünüzü döyürsünüz, ay yazıqlar?..



8

# Quruculuq dövrünü yaşayan Kəlbəcərin Şəhər Günü

## Prezident İlham Əliyev: "Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar"

***Tarixi Qələbə günlərinin əbədiləşdirilməsinə xidmət edən təşəbbüs kimi Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Həmin Sərəncama əsasən, 25 noyabr Kəlbəcər şəhəri günü kimi müəyyən olunub.***

İşğal altında olan şəhər, kənd və qəsəbələrimizin bir çoxunun Azərbaycan ordusu tərəfindən azad olunması, eləcə də Şuşanın azad edilməsi və noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi artıq düşmənin çıxılmaz vəziyyətdə olduğunu ona anlatdı və məğlubiyyəti ilə üz-üzə qaldı. Belə olduğu halda noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı. Dövlət başçısının vurğuladığı kimi, Paşinyan öz xoşu ilə bunu imzalamadı və dəmir yumruğun hesabına imzaladı. Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunun, 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonunun, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunun qaytarılması bəyanatda əksini tapıb. Artıq Ağdam işğaldan azad olunub və bu gün orada Azərbaycan bayrağı dalğalanır.

### "KƏLBƏCƏR AZƏRBAYCANIN AYRILMAZ BİR PARÇASIDIR, HİSSƏSİDİR"

Bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı. Buna səbəb olaraq isə ərazi relyefinin mürəkkəb olması, ərazinin böyüklüyü və humanizm göstərilmişdir. Bu gün artıq Kəlbəcər işğaldan azad olur, yeni nəfəs, yeni həyat gəlir Kəlbəcərə. Doğma sakinlərin hənirtisini duyur Kəlbəcər. Ulu Öndər Heydər Əliyev deyirdi: "Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikada həmişə çox hörmətə, ehtirama layiq olubdur. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar". Artıq, o zaman, o gün yetişib. Azərbaycanın ən yüksək dağ rayonu olan Kəlbəcər sakinlərinə qovuşur. 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcərin 27 illik həsrətinə, işğalına son qoyulur. Kəlbəcər qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göy-Göl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. Birinci Qarabağ müharibəsində öz yurd-yuvalarını qeyrətlə qoruyan kəlbəcərlilər ermənilərı torpaqlarına yaxın qoymurdular. 1993-cü ilin mart ayında düşmən strateji əhəmiyyətli bir neçə yüksəkliyi tutur. Təkəqaya, Zağalar, Çıraq kəndlərinə soxulub evlərə od vurub, dinc əhalini diri-diri yandırdılar. Ən əhəmiyyətli Keçiliqaya yüksəkliyinə sahib çıxırlar. Aprelin 2-də Kəlbəcər artıq erməni quldurlarının əlinə keçir. Mənbələrə əsasən işğal nəticəsində Kəlbəcərdə 511 nəfər şəhid oldu, 231 nəfər itkin düşdü, 100-lərlə adam şikəst oldu. Kəlbəcər rayonunda erməni təcavüzü nəticəsində 24279 uşaq zərər çəkmiş, onlardan 734 nəfəri yetim qalmışdır. 130 yaşayış məntəqəsi, dünya şöhrətli, "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey




darmadağın edildi. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olundu.Kəlbəcər rayonundan olan məcburi köçkünlər Azərbaycanın müxtəlif yerlərində məskunlaşdılar. 1993-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 761 mln. ABŞ dolları dəyərində ziyan dəydi. Kəlbəcər faciəsi Ağdamın, Füzulinin, Qubadlının, Cəbrayılın işğalına yol açdı. Bu artıq Qarabağın iflası demək idi. Yaşadığız tarix bunu bizlərə, gələcək nəsillərə söyləyir. Tariximizin yaddaşına çökən ağrılar faktlarla danışır.

### "ÇAY ÜSTÜNDƏ QALA"

Bəs görəsən, bu rayonun daşıdığı adın mənşəyi nədən götürülüb. Kəlbəcər toponiminin mənşəyi qədim türk dilində "çay üstündə qala" deməkdir və ən qədim insan məskənlərindən biridir. Tarixi mənbələrə əsasən, bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb. Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Kəlbəcərdə "Türk qəbristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və b. kəndlərin ərazisindədir. Qəbirstanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir ki, bütün bunlarda bu ərazidə yaşayan insanların tarixi kökündən xəbər vermiş olur.

### KƏLBƏCƏR 27 İLLİK İŞĞALDAN SONRA AZADLIĞA QOVUŞDU

Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 ildir ki, Ermənistan respublikası tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da 27 il işğalda qalmışdı.

Kəlbəcər rayonu böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri ilə seçilir. Erməni vandalları buranı işğal etdikdən sonra tarixi abidələrin əksəriyyətini məhv ediblər. Dağıdılmış mədəni abidələr Alban məbədi, Alban kilsəsi, Lök qalası, Uluxan qalası, Alban kilsəsi, Qalaboynu qalası, Comərd qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, Aşıq Şəmşir adına mədəniyyət evi, Söyüdlü yaylağında Seyid Əsədullanın ziyarətgahı və digər abidələr 27 illik işğaldan azad oldu. Artıq 27 illik həsrətdən sonra Kəlbəcərdə qaynar həyat başlayır. Haqq nahaqqa qalib gəldi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan tarixi torpaqlarına qovuşub.

### KƏLBƏCƏR YENİ DÜZƏNDƏ

Bu gün işğaldan azad olunan ərazilərimiz kimi, Kəlbəcərdə də quruculuq-abadlıq işlərinə start verilib. Artıq işğaldan azad edilən rayonda irimiqyaslı layihələr həyata keçirilir. Əlbəttə ki, həyata keçirilən layihələr, görülən işlər işğaldan azad olunan ərazilərimizdə tezliklə yeni həyatın canlanmasından xəbər verir. Bu ərazilər müasir standartlara uyğun olaraq qurulacaq, 30 illik həsrətdən sonra öz dədə-baba yurdlarından uzaq düşmüş insanlar müasir məkanlarda həyat sürəcəklər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 may 2024-cü il tarixli, 235 nömrəli Qərarına əsasən, "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" təsdiq edilib. Otuzillik erməni işğalı nəticəsində dağıdılan Kəlbəcər şəhərinin Baş Plan konsepsiyası işğal dövründən əvvəlki vəziyyəti və ərazinin relyefi, tarix-memarlıq ənənələri nəzərə alınmaqla tərtib edilib. Baş Plana əsasən, Kəlbəcər şəhəri mövcud məskunlaşma ərazisini və yaxınlığındakı Boyaqlı kəndini əhatə edəcək. Şəhərin şimal-şərq istiqamətindəki əsas girişindən başlayaraq cənub-qərb istiqamətində uzanan baş küçəsi planlaşdırma strukturunun əsasını təşkil edir. Küçənin başlanğıc nöqtəsində şəhərin sənaye və istehsalat zonası, orta hissəsində şəhər mərkəzi, bitiş nöqtəsində isə turizm və sosial xidmət obyektləri nəzərdə tutulub. Qeyd edək ki, şəhərin işğala qədərki (1969-cu ildə tərtib edilən) son Baş Planında ərazisi 130 ha, əhalisinin sayı isə 7500 nəfər təşkil etdiyi halda, 2040-cı ilədək inkişaf konsepsiyasına uyğun olaraq bu rəqəmlər iki dəfədən çox artacaq (290 hektara yaxın ərazi, 17000 nəfər əhali). Şəhərin mərkəzi ortamərtəbəli çoxmənzilli və inzibati binalardan ibarət olacaq. Ətrafda isə fərdi yaşayış evlərinin tikintisi aparılacaq.

Şəhərin ümumi yaşayış fondu 488 min m? təşkil edəcək ki, bunun da böyük hissəsi (421 min m?) fərdi yaşayış evlərinin, 46 min m?-i isə ortamərtəbəli yaşayış binalarının payına düşəcək. Ümumən 2040-cı ilədək əhalinin 4250 mənzillə (adambaşına 25 m?) təmin olunması nəzərdə tutulub.

Şəhərdə həmçinin 4 məktəb (960 şagird yerlik), 4 uşaq bağçası (520 yerlik), 2 xəstəxana (160 çarpayılıq), 1 reabilitasiya mərkəzi (150 çarpayılıq), İşğal və Zəfər muzeyləri, mehmanxanalar, müxtəlif ictimai-iaşə obyektləri və idman meydançalarının tikintisi planlaşdırılır.

Erməni işğalından azad edilən digər rayonlarımız kimi Kəlbəcər də bu gün yenidən qurulur. Yeni yaşayış məntəqələri salınır. Prezident İlham Əliyevin işğaldan azad edildikdən sonra Kəlbəcərə səfəri mühüm əhəmiyyət kəsb edib. Artıq Kəlbəcərin Yanşaq, Zallar, Zar kəndində yaşayış məntəqələrinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 137 hektar torpaq sahəsi ayrılıb. Rayonun enerji potensialını nəzərə alınmaqla "Çıraq-1", "Çıraq-2" Kiçik Su Elektrik stansiyaları qurulub.

Baş Plana uyğun olaraq, şəhərin yol infrastrukturu da müasir standartlar tətbiq edilməklə qurulacaq. Əhali uzunluğu 27 km-dən artıq olan avtomobil, 22 km olan velosiped yollarından rahat şəkildə istifadə edə biləcək.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "aşıl enerji" onasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq, şəhərin enerji təminatı bərpaolunan enerji potensialından istifadə edilməklə həyata keçiriləcək. Əhalinin içməli su təminatı isə Ağçayın su mənbələri hesabına ödəniləcək.

Kəlbəcər şəhərinin iqtisadi inkişafında xidmət və kənd təsərrüfatı sektorları böyük rol oynayacaq. Şəhər yenidən qurulan "İstisu" sanatoriyasına yaxın ərazidə yerləşdiyindən burada müalicəvi turizmin inkişafına təkan verəcək obyektlər də inşa olunacaq.

Kəlbəcərdə Yanşaq və Zallar kəndlərinin, eləcə də şəhərdə ilk yaşayış məhəlləsinin və məktəb binasının təməlini qoymuşdur. "Qamışlı" və "Meydan" kiçik su elektrik stansiyalarının, hərbi hospitalın istifadəyə verilməsi quruculuq işlərinin yüksək səviyyədə aparıldığının təzahürüdür. Xüsusi vurğulamaq lazımdır ki, Toğanalı-Kəlbəcər-İstisu və Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərdə təqdirəlayiqdir. Kəlbəcər yeni yoldadır - quruculuq yolunda. Minlərlə kəlbəcərli doğma torpağa qayıdacağı günü gözləyir. Azad Kəlbəcər, Şəhər Günün mübarək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# ICAPP-ın 12-ci Baş Assambleyası başa çatıb

***Noyabrın 23-də Kamboca Xalq Partiyasının (KXP) ev sahibliyi ilə bu ölkənin Pnompen şəhərində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyasının 4-cü plenar iclası, Asiya Mədəniyyət Şurasının (ACC) 3-cü iclası və ICAPP Media Forumunun 7-ci iclası keçirilib.***

”Sülh və barışıq axtarışı” mövzusunda keçirilən dördüncü plenar sessiyada Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da iştirak edib. İclasda dünyada artan münaqişələrin regional və qlobal təhlükəsizliyə çoxsaylı təhdidlər yaratdığı vurğulanaraq bütün siyasi partiyalar sülh naminə əməkdaşlığa dəvət olunub.

Asiya Mədəniyyət Şurasının ”Sülh və barışığın təşviqi naminə mədəni müxtəliflik” mövzusunda keçirilən 3-cü iclasında Azərbaycanı YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov təmsil edib. İclasda xalqların mədəni özünəməxsusluğunun qorunmasının, sülh və barışıq naminə mədəniyyətlərarası dialoqun təşviqinin əhəmiyyətindən bəhs olunub.

ICAPP Media Forumunun ”Rəqəmsal era kontekstində saxta xəbərlərlə mübarizə” mövzusunda keçirilən 7-ci iclasında isə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva çıxış edib. O, qlobal çağırışlar fonunda informasiya və kommunikasiya texnologiyalarının inkişafının ayrı-ayrı xalqların həyatına və dövlətlərin siyasətinə təsirlərindən bəhs edib. Qeyd olunub ki, bir sıra dövlətlər və ya dövlətlərin dəstəyi ilə təşkilatlanmış qruplar beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirmək üçün vaxtaşırı qarayaxma kampaniyaları aparırlar.
























N.Mehdiyeva diqqəti həm Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında saxlanıldığı zaman, həm İkinci Qarabağ müharibəsi ərəfəsində, həm də postmüharibə dövründə ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarına yönəldib. Regionda bir münaqişə ocağının söndüyü ərəfədə ayrı-ayrı dairələrin məhz media platformasından istifadə edərək birtərəfli, qərəzli və bugünkü reallıqla daban-dabana zidd olan feyk məlumatlar yaymağa çalışdığını deyən Nurlana Mehdiyeva bunun sabitlik və inkişafa hədəflənmiş Cənubi Qafqaz yolunda başlıca maneələrdən olduğunu diqqətə çatdırıb. Eyni zamanda, bu günlərdə Azərbaycanın ev sahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 zamanı da həmin dairələrin ölkəmizə qarşı informasiya hücumunun növbəti dalğasına start verdikləri qeyd olunub.

Sonda N.Mehdiyeva media nümayəndələrini səyləri birləşdirərək dezinformasiya və media manipulyasiyası kimi mənfi niyyət güdən fəaliyyətlərə qarşı mübarizədə vahid mövqe nümayiş etdirməyə çağırıb.

İclasın sonunda ICAPP Media Forumunun fəaliyyət qaydalarını və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Pnompen Bəyanatı qəbul olunub.

Daha sonra Kamboca Krallığının baş naziri, Kamboca Xalq Partiyasının vitse-prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının prezidenti Hun Manetin sədrliyi ilə Assambleyanın bağlanış mərasimi olub. Tədbirdə aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Pnompen Bəyannaməsi qəbul edilib.

Həmin gün tədbir iştirakçılarının Kamboca Krallığının xüsusi hüquqi sənədlər mərkəzinə və ”Vin-Vin” abidəsinə ziyarəti təşkil olunub.

# COP29: iqlim dəyişikliyinə yeni yanaşmalar

## Prezident İlham Əliyev: "200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu"

***BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın uğurla ev sahibliyi edir. Bu, bir daha təsdiqləyir ki, Azərbaycan daxilində hökm sürən sabitliyi, təhlükəsizliyi nəticəsində belə möhtəşəm tədbirləri reallaşdırır. Bütün vasitələrdən istifadə edərək, COP29-a qarşı boykot kampaniyası həyata keçirməyə cəhd etsələr də Azərbaycan uğurla bu tədbirə ev sahibliyi edir. 196 ölkədən 72 min qeydiyyata alınmış iştirakçının olması hər bir şeyi demiş olur. Onların arasında 80 Prezident, Vitse-prezident və Baş nazirlər də iştirak edir.***




BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının nümunəsidir. Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı bildirdiyi kimi, 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək fürsəti nəsib oldu: "Bu, bizim ölkəyə hörmət əlamətidir və bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir".

COP29-u keçirməyə ölkəmizə bir ildən az zaman verilsə də Azərbaycan bu işin öhtəsindən layiqincə gələ bildi. Dünyanın nəzər nöqtəsini özünə cəmləndirən Azərbaycanda müasir dünyanı narahat edən məsələlərin müzakirə olunmasında dünya ölkələrin nümayəndələri bir araya gəlib. Dünyanın müxtəlif ölkələrində iqlim dəyişikliyindən ən çox əziyyət çəkənlərə COP-29 töhfə verəcəkdir. Qoşulmama Hərəkatına sədrliyikdən və Təhlükəsizlik Şurasına üzvlüyülükdən sonra Azərbaycanın xarici siyasətinin növbəti bir uğuru kimi səciyyələndirilir. Bu gün Azərbaycan öz yaşıl gündəliyi ilə diqqətdədir. Prezident İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə ölkəmizdə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bununla yanaşı, Azərbaycanda ətraf mühitin qorunması, iqlim dəyişikliklərinin qarşısının alınması istiqamətində atılan addımlar sırasında günəş, külək enerjisinin əldə olunması sahəsində həyata keçirilən layihələri, işğaldan azad edilmiş ərazilərin, həmçinin Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan olunmasını nümunə göstərə bilərik.

Eyni zamanda, son dövrlərdə ölkəmizdə ekoloji mühitin qorunması məqsədilə bir sıra mühüm qanunlar qəbul edilib və mövcud qanunvericiliyə dəyişikliklər olunub.

Ölkədə həyata keçirilən uğurlu ekoloji siyasət ətraf mühitə dost texnologiyalardan istifadə, tükənməyən enerji mənbələrindən istifadənin genişləndirilməsi, məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsi, müasir avtomobil yollarının çəkilməsi, müasir aqroparkların yaradılması, yeni meşə massivlərinin salınması və s. bu sahədə mühüm addımlardır. Bununla yanaşı, "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "Prioritet olan İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlı 4-cü Prioritetin və "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlı 5-ci Prioritetlərin reallaşdırılması çərçivəsində hazırda 30 illik işğaldan azad edilmiş ərazilərimizdə infrastrukturun bərpası və SMART infrastrukturun formalaşması istiqamətində mühüm işlər həyata keçirilir. Belə ki, 30 illik işğaldan azad edilmiş ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri işlənib hazırlanmış və artıq icra olunmaqdadır. Hazırda iqlim dəyişmələri ilə mübarizə istiqamətində həm institusional, həm də qanunvericilik sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilməkdədir. Bundan əlavə, İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının müvafiq qərarı əsasında "Az karbonlu inkişaf üzrə Milli Strategiya", "Milli Adaptasiya Planı" və digər önəmli sənədlərin hazırlanmasına başlanılmışdır.

### "BİR MİLYONA YAXIN AZƏRBAYCANLININ ÖZ ƏZƏLİ TORPAQLARINDAN DİDƏRGİN DÜŞMƏSİNƏ BAXMAYARAQ, BİZ GÜCLÜ ÖLKƏ QURA BİLDİK"

Prezident İlham Əliyev çıxışında Ermənistanın 30 illik işğalçılıq siyasətinə də nəzər salaraq, bu illər ərizində ölkəmizə dəyən ziyanı da qeyd edərək, BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalan qətnamələrin tələblərini öz gücümüzlə icra etdiyimizi bildirib.

Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı "Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin otuz ilə yaxın Ermənistan tərəfindən işğalına və bir milyona yaxın azərbaycanlının öz əzəli torpaqlarından didərgin düşməsinə baxmayaraq, biz güclü ölkə qura bildik, iqtisadiyyatı təmin etdik və müstəqil siyasət həyata keçirdik" - deyə Prezident bildirib. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasından baxılır. Bu tədbir Azərbaycanın neftqaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya göstərə bilir. COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir.

"İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim", - deyən Prezident bildirib ki, bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir: "Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir."

### AZƏRBAYCAN QLOBAL TƏHDİDLƏR QARŞISINDA BEYNƏLXALQ HƏMRƏYLİYİ GÜCLƏNDİRİR

Cənab Prezident çıxışında onu da qeyd edib ki, Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib. Dünya üçün aktuallığı heç vaxt olmadığı qədər artan iqlim çağırışlarına Azərbaycanın həssas yanaşmasını, ölkəmizin qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüslərindən çıxış etdiyini də iştirakçıların diqqətinə çəkib.

Əlbəttə ki, Bakıda keçirilən COP29 iqlim dəyişikliyi və ətraf mühit problemlərinə həssaslığı artırmaq baxımından töhfə olacaqdır. Konfrans çərçivəsində təşkil edilən müxtəlif mövzulu tədbirlər, həmçinin seminarlar, sərgilər, mühazirələr və maarifləndirmə kampaniyaları buna nümunədir. Bu konfrans Azərbaycanın qlobal iqlim gündəliyindəki mövqeyini gücləndirib və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün yeni imkanlar yaradıb. Müzakirələrdə COP29 çərçivəsində həyata keçirilən tədbirlər yerli və beynəlxalq əhəmiyyət daşıyır. Azərbaycan bu tədbirlər vasitəsilə davamlı enerji həlləri, yaşıl texnologiyalar və ekoloji maarifləndirmə təşəbbüslərini həyata keçirir.

Azərbaycanın COP29 çərçivəsində qlobal öhdəliklər götürməsi dövlət və özəl sektorda ekoloji məsuliyyətin artırılmasına səbəb olacaq. Xüsusilə, dövlət siyasətində və qanunvericilik bazasında ətraf mühitin qorunmasına yönəlik ciddi islahatların həyata keçirilməsi gözlənilir. Dövlət qurumları karbon emissiyalarını azaltmaq üçün strateji planlar hazırlayacaq, özəl sektor isə fəaliyyətlərində ekoloji standartlara daha çox əməl etməli olacaq.

COP29 çərçivəsində həyata keçirilən müzakirələr və qəbul olunan qərarlar ölkədə sosial məsuliyyət çərçivəsində icra edilən ekoloji layihələrin artmasına şərait yaradacaq. Dövlət və özəl sektor tərəfindən ağacəkmə kampaniyaları, təkrar emal mərkəzlərinin yaradılması, şəhər ərazilərinin yaşıllaşdırılması kimi təşəbbüslər reallaşdırıla bilər. Bu layihələr təkcə ətraf mühitin yaxşılaşdırılması ilə deyil, eyni zamanda, ictimaiyyətin həyat keyfiyyətinin yüksəldilməsi ilə nəticələnəcək.

Azərbaycan COP29 vasitəsilə yaşıl iqtisadiyyat yolunda irəliləmək üçün əlavə stimul qazanacaq. Heç şübhəsiz ki, bu konfrans çərçivəsində təqdim olunan beynəlxalq təcrübə və texnologiyalar ölkədə bərpaolunan enerji mənbələrinin tətbiqini genişləndirəcək.

COP29 çərçivəsində Azərbaycanın inkişaf etmiş ölkələrin yaşıl iqtisadiyyat sahəsində və iqlim dəyişikliyinə qarşı mübarizə istiqamətində təcrübələrindən bəhrələnməsi üçün geniş imkanlar yaranıb.

Konfrans çərçivəsində ölkəyə gələn minlərlə xarici nümayəndə, investor və ekspert turizm və xidmət sektoruna əlavə gəlir gətirib. Bununla yanaşı, Azərbaycanın beynəlxalq səviyyədə nüfuzu artıb, ölkə gələcək ekoloji investisiyalar üçün daha cəlbedici bir məkana çevrilib. Konfrans müddətində otelçilik, iaşə və nəqliyyat xidmətlərinə olan tələbin artması yerli biznes üçün əlavə imkanlar yaradıb. Xüsusilə, kiçik və orta sahibkarlıq subyektləri bu tədbirdən birbaşa fayda götürərək iqtisadi fəaliyyətlərini genişləndirib.

COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamıdır. İqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq COP29 çərçivəsində Azərbaycan gündəliyinin yaşıl enerji ilə bağlı olmasını bir daha sərgiləyir. COP29-un Bakıda təşkil edilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırır. COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin sosial, iqtisadi və ekoloji inkişafına töhfə verən strateji əhəmiyyətli bir addımdır. COP29 Azərbaycanın davamlı inkişaf yolunda beynəlxalq səviyyədə mövqeyini möhkəmləndirən mühüm bir tədbirdir.

***Zümrüd BAYRAMOVA***

# Avropadan qaçış, yoxsa Rusiyaya sığınmaq?

***Gürcüstanda rusiyayönlü partiyanın qələbəsi ölkənin ”başqa Ukrayna” olmaq istəmədiyini göstərir. ”Washington Post” qəzetində dərc olunmuş məqalənin müəllifi qeyd edir ki, uzun illər Qərblə inteqrasiya cəhdlərindən sonra dövlət Rusiyanın orbitinə qayıdır. Rusiyayönlü hakim partiya seçiciləri Moskvanın qəzəbinin Gürcüstanı başqa Ukraynaya çevirə biləcəyinə inandırmaqla seçkidə qalib gəldi. Tbilisi - Mübahisəli parlament seçkilərindən sonra bir vaxtlar Sovet İttifaqının tərkibində olan kiçik bir ölkə olan Gürcüstan Qərblə inteqrasiya üçün onilliklər boyu davam edən nəticəsiz cəhdlərdən sonra Rusiyanın orbitinə qayıdır.***

Rusiyayönlü hakim ”Gürcü Arzusu” partiyası oktyabrda keçirilən seçkilərdə 54 faiz səslə qələbə qazandığını elan edib. Kampaniyasının mərkəzində o, seçicilərə sərt xəbərdarlıq etdi: Qərbi seçsəniz, Ukraynanın taleyini bölüşəcəksiniz. Müxalifət isə seçkiləri ”oğurlanmış” kimi rədd edir, lakin görünür, hakim partiya opponentlərin parçalanmasından və vətəndaşları arasında müharibə qorxusundan uğurla istifadə edir - həm də Rusiyanın dezinformasiyası və Moskvanın sferasından qopmaq istəyən ölkələrə Qərbin zəif dəstəyi ilə qidalanır.

Əgər hakim partiya öz qələbəsini möhkəmləndirərsə, hər gün daha çox ehtimal olunduğu kimi, bir vaxtlar Avropa Birliyinə qoşulmağa can atan Gürcüstanın dönüşü, Qərbə yaxınlaşmağa ümid edən Ukrayna və digər keçmiş sovet respublikaları üçün xəbərdarlıq rolunu oynayacaq. Bu, Rusiya prezidenti Vladimir Putinin sovet dövründən sarsılmış regional hegemonluğu bərpa etməyə çalışdığı bir vaxta təsadüf edir. Moskvada zəiflik dövründən sonra Rusiyanın Ukraynadakı xüsusi əməliyyatı sanki Qərblə sıx əlaqələr qurmaq istəyən qonşu ölkələrdə soyuq duş effekti yaratdı. Gürcüstanın keçmiş prezidenti Giorgi Marqvelaşvili Kremlin aqressiv mövcudluğunu onun keçmiş peykləri üçün ən təsirli təhlükə adlandırıb: ”Nə edirsinizsə, fərqi yoxdur. Biz yer üzündəyik. Siz 30 il uğurla Qərbə yürüş edə bilərdiniz, amma gec-tez tərk ediləcək və bizə qayıdacaqsınız”.



## Avropadan uzaqlaşmaq

Gürcülərin böyük əksəriyyəti - sorğulara görə, ardıcıl olaraq 80%-dən çoxu - Avropaya inteqrasiyanı dəstəkləyir və Moskvaya az məhəbbət bəsləyir, müxalifət isə öz kampaniyasını Avropa İttifaqı ilə Rusiya arasında seçim kimi qələmə verməyə çalışır. Lakin 2008-ci ildə iki ölkə arasında baş vermiş qısa müharibədən sonra Gürcüstan ərazisinin 20%-i hələ də faktiki olaraq Rusiyanın nəzarəti altında olduğundan, Moskvanın hərbi qüdrəti ölkə üzərindən asılıb. Bunu nəzərə alaraq ”Gürcü arzusu” seçicilərə daha məşum seçim təklif etdi: sülh və müharibə arasında.

”Gürcü arzusu” Partiyasının Rusiyaya dönüşü təsadüfi olmayıb, 2012-ci ildə hakimiyyətə gəldikdən sonra sürətlə Aİ üzvlüyünə doğru irəliləyib. Amma Ukraynada münaqişənin başlaması ilə partiya yenidən üzünü Moskvaya tutub. Hökumət Qərbi və yerli müxalifəti Moskvaya qarşı döyüşdə gürcüləri piyona çevirmək istəyən ”qlobal müharibə partiyası” kimi göstərməyə başlayıb. ”Gürcü arzusu” indi də özünü rusiyapərəst adlandırmır, ölkənin maraqları arxasında gizlənir və eyni anda bir neçə nüfuzlu oyunçu ilə əlaqə saxlayır. Lakin praktikada belə siyasət çox vaxt açıq-aşkar Rusiyayönümlü siyasətlə nəticələnir.

Avropadan üz döndərən əsas fiqurlardan biri ”Gürcü Arzusu”nun qurucusu, bir neçə dəfə siyasətdən getmiş, lakin nüfuzunu itirməmiş milyarder, keçmiş baş nazir Bidzina İvanişvilidir. O, 1990-cı illərdə Rusiyada sərvət qazanıb və tənqidçilər onun ritorikasında və siyasətində Rusiya liderini təkrarladığını deyirlər. ”Gürcüstan və Ukrayna NATO-ya buraxılmadı və blokdan kənarda qaldı”, deyən İvanişvili bu il keçirilən mitinqdə nadir hallarda ictimaiyyət qarşısında çıxış edib. ”Bütün bu qərarlar NATO və Aİ-də həlledici söz sahibi olan və həm Gürcüstan, həm də Ukrayna üçün sadəcə top yemi olan Qlobal Müharibə Partiyası tərəfindən verilir”. 2022-ci ildə Rusiyanın Ukraynadakı xüsusi əməliyyatının lap əvvəlində Gürcüstan Kiyevə dəstəyini ifadə etdi. Ukrayna bayraqları hələ də paytaxtın pəncərələrini bəzəyir, lakin hökumət sanksiyalar tətbiq etməyib və davamlı olaraq Moskvanı kəskin tənqid etməkdən yayınıb.



”Hökumət olaraq biz Ukraynanı və Ukrayna xalqını dəstəkləmək üçün mümkün olan hər şeyi etdik”, - partiyanın sədr müavini Arçil Talakvadze The Washington Post-a deyib. Eyni zamanda, o, açıq şəkildə hesab edir ki, ”xarici” məmurlar Gürcüstanı öz proxy savaşına sürükləməyə çalışıblar. ”Biz hiss etdik ki, bu, Gürcüstanı yersiz riskə məruz qoyacaq”, o, yekunlaşdırıb. Dağıdılmış Ukrayna şəhərləri ilə toxunulmamış gürcü şəhərlərini əks etdirən plakatlarla seçki kampaniyası insanların, xüsusən demarkasiya xəttinə yaxın kənd yerlərində dərin səs-küy salıb.

## Müharibədən çəkinin

Gürcülər son müharibəni unutmayıblar. Böyük Qafqaz silsiləsinin cənub yamacında İvanişvilinin ata-baba kəndi olan Çorvilaya gedən yol düz separatçı Cənubi Osetiya ilə demarkasiya xətti boyunca keçir. Rusiya buradan cəmi bir neçə kilometr məsafədədir. Burada İvanişvili praktiki olaraq xalq qəhrəmanı və həmvətənlərinə borcunu qaytaran və dövlət vəzifəsinə başlayana qədər səxavətlə evlər və yollar tikən, sakinlərin kommunal xərclərini ödəmiş vicdanlı varlı hesab olunur.

”Mən müharibənin əleyhinəyəm. Mən əminəm ki, ”Gürcü arzusu” sülhü qoruyacaq. Biz ölkələrin bizimlə mübahisə etməsini istəmirik və özümüz də heç kimlə mübahisə etmək istəmirik”, - deyə 2008-ci ildə Rusiya təyyarələrinin gurultu ilə uçduğunu xatırlayan yerli məktəb direktoru Qoqi Qurzenidze bildirib. Burada, ”Gürcü Arzusu”nun qəlbində seçicilər İvanişvilinin kampaniyasının hər iki sütununu - neytrallığın görünüşü ilə sülhü və Gürcüstanın ənənəvi dəyərlərinin qorunmasını həvəslə dəstəkləyirlər. ”Gürcü Arzusu” hələ də 2030-cu ilə qədər Aİ üzvlüyünü əldə edilə bilən məqsəd adlandırır, hərçənd bir xəbərdarlıqla: Gürcüstan yalnız ”ləyaqətlə” və öz ənənələrinin qoruyucusu kimi qoşulacaq.

”Əlbəttə, mən Aİ-yə üzv olmaq istəyirəm, lakin biz atalarımızın ləyaqətini qorumalıyıq. Qadın qadın, kişi isə kişi olmalıdır”, - Çorvila sakini Mamia Machavariani deyir. Bu ”ləyaqət” artıq bir müddətdir ki, blokun standartları ilə kobud uyğunsuzluqlar səbəbindən Gürcüstanın Aİ-yə üzvlüyünə mane olan iki qanunla qorunur. Birincisi, Ailə Dəyərləri və Yetkinlik yaşına çatmayanların Mühafizəsi Qanunu var, hansı ki, eynicinsli nikahları, cinsiyyətin dəyişdirilməsini qadağan edir və ”Qürur” hadisələri ” (oxu: gey qürur paradları), həm də mediada senzura üçün zəmin yaradır. İkincisi, maliyyələrinin 20%-dən çoxunu xaricdən alan vətəndaş hüquqları təşkilatları və media orqanlarının ”xarici gücün maraqlarına xidmət edən” qruplar kimi qeydiyyatdan keçməsini tələb edən Xarici Agentlər Qanunudur. Hər iki qanun demək olar ki, rus qanunlarının tam surətidir.

## Tutulmayan Avropa

Paytaxt Tbilisidə ümidsizlik hökm sürür, çünki sakinlər tam hüquqlu demokratiyaya çevrilmək və Aİ-yə qoşulmaq şanslarını itirmək üzrədir. ”Bu, qələbə deyil. Bu, hakimiyyətin qəsb edilməsidir”, - 38 yaşlı Tiflis sakini Georgiy yalnız qisas qorxusundan adını çəkdiyini bildirib. - Biz Aİ-yə doğru getməliyik, çünki bu gün heç bir normal ölkə Rusiya ilə daha sıx əlaqələr istəməz. Bu, intihara bənzəyir, çünki Rusiya heç bir razılaşmaya əməl etmir”.

Müxalifət ”Gürcü Arzusu”nun ölkənin müharibəyə cəlb olunmasının qarşısını almaq missiyasını rədd edərək bunu təbliğat adlandırıb. Bəziləri onun əsl məqsədinin hakimiyyətdə qalmaq və təkpartiyalı sistem yaratmaq olduğunu iddia edirlər. ”Gürcüstan naminə” partiyasının lideri Giorgi Qaxariya hesab edir ki, ”Gürcü arzusu” və İvanişvili Aİ-yə qoşulmağın hakimiyyət dəyişikliyi demək olduğunu başa düşərək kursu dəyişiblər. ”Onun əsas məqsədi hakimiyyətdə qalmaqdır” deyib. ”Ancaq sonra o, bunun mümkün olmadığını başa düşüb, çünki Avropa tipli demokratiya seçkilər vasitəsilə hakimiyyətin dəyişdirilməsini nəzərdə tutur”.

Lakin seçkinin nəticələrinə etirazlar yazda keçirilən etirazlarla müqayisədə yeni qanunlara qarşı kifayət qədər təvazökar olub. Bu onu deməyə əsas verir ki, müxalifətin müəyyən mənada gücü tükənib. Müxalifət liderləri Aİ liderlərini köməyə çağırır, bloku istintaq missiyası göndərməyə çağırır, lakin bu, yalnız ”Gürcü Arzusu”nun rəhbərlik etdiyi hökumətin razılığı ilə baş verə bilər.

Brüssel partiyaya təzyiq göstərə bilərdi, lakin Avropa rəsmilərinin reaksiyası çox təmkinli oldu. Müşahidəçilər bir sıra ciddi pozuntular barədə məlumat versələr də, seçkilərin təyin olunmasını dayandırdılar. Potensial pozuntuların tapılması aylar olmasa da, həftələr çəkəcək və ictimai rəyi manipulyasiya etməyin çoxlu dolayı yolları var ki, onları izləmək daha çətindir. Beynəlxalq Respublikaçılar İnstitutunun Corciya Proqramından Con DiPirro deyib ki, ”Bu, toyuq-yumurta məsələsidir: Qərb kifayət qədər sübut olmadan hərəkətə keçmək istəmir və Qərb ona kifayət qədər təzyiq göstərməyincə, müxalifət bu sübutları toplaya bilməz” deyib.

Avropa Gürcüstana marağını itirəcək və keçən yay Con DiPirro Donald Trampın qələbəsinin Ukrayna münaqişəsinə son qoyacağını proqnozlaşdırmışdı. ”Bizim cəmi bir ilimiz qalıb, bundan sonra qlobal və regional maraqlar, o cümlədən Gürcüstana münasibətdə də dəyişəcək”, - o deyib. Onun sözlərinə görə, münaqişənin sona çatması ilə ”Avropa və Amerika ilə bütün anlaşılmazlıqlar da dayandırılacaq”.

**V.VƏLİYEV**

GÜNÜN SUALI




# "YAP ürəyi vətənlə döyünən insanları Ulu Öndərin işığında birləşdirib"

***SİA Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 32-ci ildönümü ilə əlaqədar millət vəkilləri arasında sorğu keçirib:***

**Millət vəkili Tahir Rzayev:**

"Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranan partiyadır. Dövr, zaman bunu tələb edirdi və Azərbaycan xalqının bilavasitə təşəbbüsü, Ulu Öndərin səyləri nəticəsində bu partiya təsis olundu. YAP-ın 32 il ərzində keçdiyi yol çətin və



çox mənalıdır. Çünki yarandığı altı aydan sonra bu partiya ölkənin hakim partiyasına çevrildi. Sözsüz ki, bu partiyanın sədri Ulu Öndər Heydər Əliyevə xalqın böyük etimadının və inamının ifadəsi idi. Çünki partiyanın yaradıcısı Ümummilli Lider Heydər Əliyev bütün fəaliyyəti dövründə xalqla bir olmuş, arzu və istəklərini ifadə etmişdir, Azərbaycanın inkişafında və tanıdılmasında böyük xidmətlər göstərib. Məhz buna görə də 91 nəfər ziyalı xalqın adından Ulu Öndərə partiyanın yaradılması ilə əlaqədar müraciət edərkən, bunu səmiyyətlə qarşılamış və Azərbaycanın bugünkü taleyi, o dövrün çətinliklərini nəzərə alaraq belə bir siyasi təşkilatın yaradılmasına razılıq vermişdir.

Partiyanın müəyyənləşdirdiyi yol, onun məqsədi müqəddəs idi. Heydər Əliyev tərəfindən müəyyənləşdirilən fəaliyyət proqramda Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, ərazi bütövlüyünün təmin edilməsi, hüququ və dünyəvi dövlət quruculuğu, əmin-amanlıq, siyasi sabitliyə mühüm önəm verilir və bu vacib məqamlar qarşıya məqsəd qoyulurdu. Bu ideyalar cəmiyyət tərəfindən də dəstəklənirdi. Məhz bu dəstəyin nəticəsi idi ki, 1993-cü ilin iyun ayında partiyanın sədri Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldi. Təbii ki, həmin dövr çətin idi, torpaqlarımız işğal altına düşmüşdü, erməni işğalçıları isə daha geniş ərazini işğal etməyi hədəfləyirdi. Həmçinin ölkə daxilində parçalanma var idi, silahlı qarşıdurmalar baş tuturdu. Belə bir şəraitdə Heydər Əliyevin hakimiyyətə gəlməsi, böhranlı vəziyyəti aradan qaldırması çətin idi. Lakin xalq inanırdı ki, bu çətinliklərin öhdəsindən yalnız Ulu Öndər gələ bilər.

Xalq öz inamında yanılmamışdı, Ulu Öndər hakimiyyətə gələn kimi ictimai-siyasi stabilliyi bərpa etmək, iqtisadiyyatı gücləndirməyi əsas vəzifə kimi qarşıya qoydu.

Sonrakı dövrlərdə atəşkəsin əldə edilməsi, çox mühüm neft kontraktlarının imzalanması, beynəlxalq aləmlə münasibətlərin yaxşılaşdırılması, qonşu ölkələrlə əməkdaşlıqların qurulması ölkənin bugünkü inkişafını təmin etdi. Əbəs yerə deyilmir ki, "YAP dünənin, bugünün və gələcəyin partiyasıdır". YAP Heydər Əliyevin təşkilatçılığı, müdrikliyi sayəsində o dövrdə çətin, amma şərəfli bir yol qət etdi.

Sonrakı uğur və nailiyyətlər isə ölkə başçısı cənab İlham Əliyevin adı ilə sıx bağlıdır. Partiyamızın sədri, Prezident İlham Əliyev Ulu Öndərin bəşəri ideyalarına sadiqliyini bütün hallarda uğurla yerinə yetirdi. Bu gün də bəşəri vəzifələr uğrunda mübarizə davam edir.

YAP-ın 5 mart 2021-ci ildə keçirilən qurultayında YAP-ın bir siyasi qüvvə kimi həyata keçirdiyi tədbirlər bütün dünyaya bəyan edildi. Partiyanın sədri cənab İlham Əliyevin səyi bəşəri ideyaları dünyada sülh, azadlıq, demokratiya uğrunda apardığı mübarizə nəinki Azərbaycan xalqı, həmçinin dünyanın əksər dövlətləri tərəfindən qiymətləndirildi. Prezidentin səyləri nəticəsində partiyanın sıraları gün keçdikcə daha da genişlənir. Bu gün dünya dövlətləri YAP-ın sədri cənab İlham Əliyevi uzaqgörən, müdrik, bəşəri dəyərlərə hakim və insan hüquqlarına dəyər verən rəhbər kimi tanıyır. Dövlət başçısının əldə etdiyi uğurlar bu gün bir örnək kimi dünya siyasətçilərinə təqdim olunur. Rəhbərimizin ən böyük uğuru isə Qarabağ və Şərqi Zəngəzurun erməni faşistlərindən azad edilməsidir. Çünki bu elə bir qələbədir ki, Azərbaycan xalqı bu qələbəni illərlə gözləyib.

Bu gün ölkə başçısı tarixi qələbəni iqtisadi sahədə, beynəlxalq aləmdə təkrarlamaqla yeni tarix yazır. COP29-un ölkəmizdə uğurla həyata keçirilməsi bir daha göstərdi ki, Azərbaycan ən böyük beynəlxalq tədbirlərə ev sahibliyi etməyə hazırdır. Bu uğurlar xalqın dəstəyi, Prezidentə inamından qaynaqlanır. Bu gün Azərbaycan Prezidenti xalqla birdir, qarşıya qoyulan ən mühüm vəzifə isə sərhədlərimizin, milli birliyimizin qorunması, ölkənin inkişaf etdirilməsidir.

Bu yolda Yeni Azərbaycan Partiyasının üzvləri ön sırada gedirlər. YAP bu gün öz tarixinin ən şanlı səhifələrini yaşayır".

**Millət vəkili Hikmət Babaoğlu:**

"1992-ci il noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının yaradılması təkcə siyasi sistemimizin tari-



xində mühüm hadisə kimi yadda qalmadı. Həmçinin Azərbaycan dövlətçilik tarixinə mühüm hadisə kimi adını yazdırdı. Partiyanın qurucusu Ulu Öndər Heydər Əliyev dövlətçiliyimizin inkişafının sonrakı mərhələsində hüquqi, sosial dövlət yaratmaq məqsədlərini YAP-ın nizamnaməsində əks etdirdi. 1995-ci ildə isə məhz Azərbaycançılıq ideologiyası, demokratik dəyərlər, insan azadlıqları, müstəqil dövlət quruculuğu kimi mühüm hüquqi-siyasi prinsiplər Azərbaycan Respublikasının Konstitusiyasında mühüm yer tutdu.

Yarandığı gündən bu günə qədər siyasi sistemimizin lokomativinə çevrilən YAP öz fəaliyyətinin müxtəlif mərhələlərində gələcək Azərbaycan üçün fundamental əsaslar yaratmağı bacardı. Bu təkcə siyasi sistemin yeni milli və demokratik dəyərlər əsasında inşası deyildi, həm də dövlətçiliyimizin inkişafının keyfiyyətcə yeni bir mərhələyə daxil olmasının başlanğıcı idi. Nəhayət YAP ölkəmizdə daxili siyasi proseslər kontekstində milli bərabərlik və həmrəyliyi təmin etməklə bərabər, həm də xarici siyasətimizdə milli maraqlara söykənən strateji kurs müəyyənləşdirməyi bacardı.

Bütövlükdə əsas məqsəd torpaqlarımızı işğaldan azad edərək, suverenliyimizi təmin etmək idi. Bu gün YAP Azərbaycan cəmiyyətinin siyasi sistem qurmağı bacardığı gündən bu günə qədər ilk belə siyasi təşkilatdır ki, qarşıya qoyulan məqsədlərə çatdı".

**Millət vəkili Əli Hüseynli:**

"Düz 32 il bundan öncə - 21 noyabr 1992-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sədrliyi ilə YAP təsis edillmiş və Ulu öndərimiz partiyanın sədri seçilmişdir. Məhz həmin təqvim YAP-nın yaranması günü kimi çağdaş tariximizə həkk olunmuşdur.



O dövrdə Azərbaycan öz dövlət müstəqilliyini formal şəkildə bərpa etməsinə baxmayaraq, reallıqda nəinki bu nailiyyəti, hətta dövlətçiliyinin itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdı. Ona görə də o zaman respublika rəhbərliyində olan səriştəsiz rəhbərlərin yarıtmaz fəaliyyətlərinə və antimilli düşüncələrinə müxalif qüvvə kimi siyasət meydanına atılan YAP Heydər Əliyevin dühası sayəsində çox tez bir zamanda xalqın rəğbətini qazanaraq 1993-cü ildə artıq hakim partiya kimi ölkənin inkişaf strateğiyasının ideoloji sütununa çevrilə bildi. YAP-ının yaradılması ilə Azərbaycanın xilasının və sürətli dinamik tərəqqi yolunun bünövrəsi qoyuldu. Bu baxımdan bu gün tam səmimiyyətlə və əminliklə deyə bilərik ki, Azərbaycanın o dövrdən bəri əldə etdiyi bütün uğurlarının altında YAP-nın imzası vardır. Partiyamızın öz nailiyyətlərinin arxasında isə xalqın inamı və bu inamdan irəli gələn dəstək dayanır.

Bu gün sıralarında 730 mindən artıq üzvü birləşdirən və bütün fəaliyyəti boyu "dünənin, bu günün və gələcəyin partiyası olduğunu" sübut edən YAP 32 il ərzində çox məsuliyyətli və şərəfli yol keçib. Hər mərhələdə özü üçün yeni, daha yüksək siyasi hədəfləri müəyyən edən partiya əvvəlcə təşkilatın lideri Heydər Əliyevin müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti nəticəsində Azərbaycanın bu gününü və gələcək taleyini müəyyən edən konsepsiyanın hazırlanıb həyata keçirilməsində əvəzsiz rola malik olub.

YAP bu gün ölkənin ölkəmizdə siyasi sistemin monolit gücü və avanqard siyasi institutu kimi siyasi mədəniyyətin və siyasi sistemin formalaşmasına və təkmilləşməsinə fundamental töhfələr verməkdədir. O, sahib olduğu resurslara, ictimai-siyasi dəyərinə, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki yerinə görə Azərbaycanın siyasi palitrasının ən nüfuzlu partiyasıdır.

2003-cü ildən YAP-nın sədri kimi bu estafeti daha böyük nailiyyətlərlə davam etdirən cənab İlham Əliyev Ulu öndərimizin ölməz siyasi irsini daha da zənginləşdirərək dövlətimizin qüdrətinin, beynəlxalq nüfuzunun daha da artmasını təmin edib. Yeni siyasi konfiqurasiyanın formalaşması ilə milli həmrəyliyə nail olunması, bu istiqamətdə bütün səviyyələrdə ümumxalq və taleyüklü məsələlər ətrafında siyasi həmfikirliliyin təşəkkül tapması Qarabağın işğaldan azad olunmasında, ölkəmizin ərazi bütövlüyünün və dövlət suverenliyinin təmin edilməsində ən mühüm rol oynayan amildir. Ona görə də bu tarixi Qələbə həm də regionun ən möhtəşəm siyasi təşkilatına çevrilmiş YAP-na Zəfər partiyası kimi yeni titul qazandırıb. Özünün sülh konsepsiyası ilə bölgənin yeni tarixini yazan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi doktrinasının reallaşması sayəsində bu gün artıq müharibədən sülhə, ədavətdən barışığa, əsassız iddialardan reallığa və ədalətə keçidin konturları formalaşmaqdadır. Bu yolun ideoloji lokomotivi isə məhz daim yeniləşən və güclənən YAP-dır".

**Millət vəkili Azər Badamov:**

"Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 32 ili tamam olur. YAP zərurətdən yaranan siyasi partiyadır. Amma müxalif partiyası kimi təsis olunsa da, yarandığı ilk gündən hökumətə qarşı konstruktiv mövqedə olmuşdur.

YAP yaranması ölkənin gələcəyinə biganə qala bilməyən Azərbaycan ziyalıların ümumi birliyi ilə orta gətirilmiş bir ideyadan irəli gəldi. Ulu Öndər Heydər Əliyevin dövlətçilik, vətənə bağlılıq, demokratik prinsiplərini özündə cəmləyən YAP qısa zaman kəsiyində iqtidar partiyasına çevrilir və müstəqil Azərbaycan dövlətinin xilaskarına çevrilir. Əslində YAP ürəyi vətənlə döyünən insanları Ümummilli Lider Heydər Əliyevin işığında birləşdirmişdir. Yeni Azərbaycan Partiyasının 32 illik fəaliyyət dövrü keçdiyi böyük bir tarixi yolla zəngindir. Partiyanın ideyaları Azərbaycanı parçalanmaqdan xilas etməklə güclü müstəqil dövlətin yaradılması üzərində qurulmuşdur. Belə ki, Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə YAP Azərbaycanda güclü müstəqil dövlətin əsaslarının yaradılmasında yaxından iştirak etdi. Əslində YAP iqtidara gəldiyi ilk gündən dövlətin siyasi kursu ilə yanaşı addımlayır və



uğurlu bir siyasi fəaliyyəti ilə ümumxalq partiyasına çevrilmişdir.

26 mart 2005-ci ildə YAP-ın sədri seçilən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirir və Azərbaycanı qalib bir ölkəyə çevirir. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu və xalqımız Ulu Öndərin ən böyük arzusunu həyata keçirərək, Şuşada dövlət bayrağımızı dalğalandırır.

5 mart 2021-ci ildə keçirlən YAP-ın VII qurultayı partiyanın tərkibində struktur islahatların aparılması, yeni nizamnamə və proqramın qəbul edilməsi ilə partiyanın siyasi fəaliyyətində yeni hədəflər müəyyənləşdirir. Bu hədəflərdə işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın həyata keçirilməsində yaxından iştirak etmək, ölkədə milli həmrəyliyin və birliyin daha da möhkəmləndirilməsi, gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyyə olunmasının genişləndirilməsini özündə əks etdirir.

Bu gün YAP regionun ən böyük siyasi gücü olması ilə yanaşı dünyanın böyük siyasi partiyaları ilə geniş əməkdaşlıq edilməsini genişləndirir. Belə ki, 12 noyabr 2024-cü ildə Çin Xalq Respublikasına səfərdə olan YAP nümayəndə heyəti Çin Komunist Partiyası ilə əməkdaşlığa dair memorandum imzalamışdır. YAP dünyanın güclü ölkələrin siyasi partiyaları ilə əməkdaşlığını genişləndirməklə dövlətlər arası münasibətlərin genişlənməsinə və ölkəmizin siyasi mövqelərin möhkəmlənməsinə töhfə veirir.

YAP Azərbaycan dövlətinin daha da güclənməsinə, xalqın rifahının daha da yaxşılamasına və ölkədə xalq iqtidar birliyinin möhkəmlənməsinə xidmət edir. YAP-ın iqtidarda olduğu illər Azərbaycan dövlətinin qurulmasına, siyasi və iqtisadi müstəqilliyinin təmin olunmasına, dünyada mövqelərimizin möhkəmlənməsinə və Azərbaycanın qalib dövlət olmasına xidmət etmişdir. Məhz YAP-ın iqtidarda olmasıyla Azərbaycan dövləti daha da inkişaf edəcək və xalqımızın firavanlığı artacaqdır. Bu baxımdan YAP "Dünənin, bu günün və gələcəyin partiyasıdır".

***Səbinə Hüseynli***

# Qadınlar kimin yerini dar edir?



BMT Baş Assambleyası 1999-cu ildə 25 noyabrı Qadın Zorakılığına Qarşı Mübarizə Günü elan edib. Qadın Zorakılığına Qarşı Mübarizə Gününün məhz 25 noyabrda qeyd edilməsi təsadüfi deyil. Bu, 1961-ci ildə Dominikan Respublikasında baş verən hadisədən qaynaqlanır. Həmin vaxt Dominikan prezidenti Rafael Truxilonun əmri ilə siyasi fəallardan olan 3 tibb bacısı vəhşicəsinə öldürülüb. Qadınların zorakılığa qarşı mübarizə simvolları ağ lentdir. BMT cəmiyyətin bu probləmə diqqətini cəlb etmək üçün noyabrın 25-də hökumətlərə, beynəlxalq təşkilatlara və QHT-lərə tədbirlər keçirməyi təklif edir.

Cəmiyyətdə sivilizasiya səviyyəsini müəyyən edən ən mühüm meyar o toplumda qadının statusudur. Genderlə bağlı araşdırmaların əksəriyyəti də qadınları kişilərlə müqayisə etməklə aparılır. Cinsimizi xromosomlar müəyyən etdiyi halda, gender balansımızı cəmiyyət müəyyən edir. Qadını əzən də bu cəmiyyətdəndir, əzdirən də. Döyən də içimizdəndir, izləyən də. Əslində, bütün demokratik ölkələrin siyasətinin əsasını gender bərabərliyi təşkil edir, lakin realda bir çox ölkədə qadınlar müstəqil və bərabərhüquqlu vətəndaş kimi sosial-ictimai həyatda iştirak edə bilmirlər.



Gender bərabərliyi qadın-kişi arasındakı sosial vəziyyəti, hüquqi maraqları, iqtisadi durumu tarazlaya bilir. Amma bu vəziyyətdən narahat olan güclü cins əlinə keçən hər fürsəti dəyərləndirir, qadınlar ailədə fiziki zorakılığa məruz qalır, bütün yolları yoxlayır, ailəsini qorumaq üçün hər fürsəti dəyərləndirir, amma vəziyyət düzəlmir. Qadın boşanmaqdan qorxur, çünki boşanmış qadın cəmiyyətdə stiqma ilə üzləşir. Onu boşandığı üçün qınayan cəmiyyət sosial-ictimai həyatda yer tutması üçün heç bir təşəbbüs göstərmir. Necə deyərlər, nə paraya dəy, nə bütövü kəs, amma doyunca ye...

## Qadınlara qarşı zorakılıq: niyə, nə üçün?

Qadınlar sadəcə öldürülmür, ağır işgəncələrlə və vəhşicəsinə yollarla qətl edilir. Bütün dinlərin, inancların, qədim adət-ənənələrin baş tacı etdiyi qadın bu dövrdə, bu əsrdə yerlərdə sürüklənir, kəndirdən asılır, dəlik-deşik edilir.

Qadınların vəhşicəsinə qətl edilmə səbəbləri arasında 3 əsas amil var - savadsızlıq, sevgisizlik, şüursuzluq. Hər 3 amili də ailə formalaşdırır. Əgər hər bir valideyn övladını sevgi ilə böyütsə, övladına insani dəyərləri aşılasa, təhsil versə bu cür psixoloji pozğunluğu olan kişilər cəmiyyəti birə kimi basmaz, zorakılıq edə bilməz. Oğlan uşağına bəy balası, xan nəvəsi ədası ilə davranan, elədiyi səhvi dəcəllik kimi qəbul edən, hərəkətlərinə göz yuman valideyn gələcəkdə övladının edəcəyi zorakılığa yol açır əslində.

Qadına qarşı yolverilməz hərəkətlər edən, söyən, döyən, qətl edən insanları da cəmiyyət olaraq biz yetişdiririk. Fundamental maarifləndirməyə əhəmiyyət verməli, insanları psixoloji cəhətdən islah etməli, düşüncələri dəyişib inkişaf etdirməli olduğumuzu bilirik. Çox vaxt bunu həyata da keçiririk. Amma nəticə istədiyimiz kimi olmur. Qadına qarşı zorakılıq hər gün, hər saat artır. Sabaha ümid bağlamırıq daha, çünki dünən sabahdan daha empatiya dolu idik.

## Bərabərlik - sözdə yox, əməldə

Dövlətimizin bütün qanunlarında, hüquqi sənədlərdə bərabərlik təmin edilir, lakin cəmiyyətin sosial bərabərlik anlayışı dəyişmədiyi üçün qadınlara sosial baxış da dəyişmir. Buna görə də anlayış dəyişikliyi tələb olunur. Qadınların maarifləndirilməsi, səhiyyə, siyasət və ictimai həyatda iştirakda qadınların prioritetliyi, qadınların öhdəlikləri ilə bağlı mənfi stereotiplərdən yaxa qurtarmaq və ailədə öhdəliklərin bölüşdürülməsi əsas hədəf olmalıdır. "Mən kişiyəm, mənə olar" ədası ailənin sonu olur, acı təcrübələrini çox görmüşük.

Ailədə qərarları birlikdə qəbul etmək, hüquq və vəzifələrdə bərabərliyi təmin eləmək, ailədə qız və oğlanlara bərabər münasibət göstərmək, qadınların sosial həyatda iştirakının təmin edilməsi və dəstəklənməsi, onların məşğulluğunun artırılması, qadınların ailə həyatı ilə iş həyatının bir-birini təmin etməsinə şərait yaratmaq, qadınların zorakılığa məruz qalmasının qarşısının alınması, ayrı-seçkiliyin qadağan edilməsi və ayrı-seçkiliklə mübarizə məsələsinin təşviqi, bərabər imkanların təmin edilməsi qadına göstəriləcək ən böyük dəstəkdir.




Qadın hüquqları ilə bağlı fəaliyyət göstərən bir çox layihə icraçıları elə düşünür ki qadınların hüquqlarını qadınlara başa salmaqla gender bərabərliyini təmin etmiş olurlar. Amma bu bərabərliyin təmin edilməsi üçün qadınlardan çox kişilərin maariflənməyə ehtiyacı var. Axı qadınları əzən, söyən, döyən, öldürən qadınlar deyil. Haqqını-hüququnu bilməsi qadına nə verir? Əvvəl 10 öldürülürdüsə, indi 9 öldürürlürlər, razıyam. 1 nəfər özünü xilas etdi, bəs yerdə qalanlar?

## Vəzifənin qadını, kişisi olur?

Gender bərabərliyinin təmin edilməsi və cəmiyyətdə qadınlara verilən rolların dəyişdirilməsi üçün bütün cəmiyyət olaraq qadınların qarşısında qoyulan maneələri aradan qaldırmaq, onları bərabərhüquqlu şəxsiyyət kimi qəbul etmək və cəmiyyətdə öz layiqli yerini tutmalarına dəstək olmaq lazımdır. Xüsusilə kişilər qadınlara münasibətdə inqilab etməlidir.

Bizim ölkəmizdə iddia etdiyimiz qədər də öncəlik verilmir qadınlara. Doğrudur, əhəmiyyətli postlarda qadın vəzifəlilər var, lakin bu nisbət ölkənin qadın əhalisinin əhəmiyyətli faizi qədər deyil. Dövlət və özəl sektorda təmsil olunan qadınlardan əlavə sadə vətəndaşların iqtisadi imkanları o qədər də yüksək faizlə xarakterizə edilmir. İş qurmaq istəyən, sərbəst gəlir əldə etmək istəyən çox sayda qadın var. Əslində, bizim ölkədə sənədlərdə olan imtiyazlarından istifadə edə bilsələr qadınlar çox rahat həyat yaşayarlar, lakin sənəddə olanlar reallığa ötürülmür. Qadınlar iş mühitində sıxışdırılırlar, biznes imkanı əllərindən alınır, mental ayrı-seçkiliyə məruz qalırlar.

***Lalə Mehralı***



## "Gürcüstanı hərə bir tərəfə dartır"

"Gürcüstanda qeyri-adi heç nə baş verməyəcək, yəni indiki mərhələdə müəyyən narahatlıq, narazılıq var. Amma bunlar keçicidir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib. O bildirib ki, bəlli müddət sonra ara sakitləşəcək, hər şey yoluna düşəcək: "Gürcüstan özünün müstəqil inkişaf yolunu seçir. Təbii ki, Gürcüstanı hərə bir tərəfə dartır. Bir tərəfdə Rusiya, bir tərəfdə Qərb, hər kəs istəyir ki, Gürcüstan onun yanında olsun. Amma Gürcüstanın da ali dövlət ağlı düşünür ki, özü öz yolunu müəyyən etməlidir. Yəni kimin harasa çəkməsi yox, sadəcə olaraq Gürcüstan xalqının mənafeyi nəyi tələb edirsə, onu etməlidir. Ona görə də, indiki şəraitdə qarşı duran tərəflərdən danışa bilərik. Bəlli müddətdən sonra bu qarşıdurmalar səngiyəcək, heç bir narahatlıq olmayacaq. Sakit məcrada hər şey davam edəcək. Gürcüstanın əsas məsələsi Rusiyanın işğalı altındakı Abxaziya və Güney Osetiyanın azad edilməsidir. Ona görə Gürcüstan bir qədər narahat şəkildə hazırkı mərhələni keçir, keçəcək də, normal şəkildə bitirəcək də. Ümid edək ki, Rusiya da nəhayətdə normal yanaşma sərgiləyib işğal etdiyi Gürcüstan ərazilərindən əl çəkəcək. Çəkməyəcəyi təqdirdə növbəti mərhələdə Gürcüstan artıq birmənalı şəkildə Rusiyadan imtina edib Qərbə meyillənəcək. Onda da, yəqin ki, xalqın böyük əksəriyyəti Qərbə meyilliliyin tərəfində olacaq".

"Azərbaycanla bağlı elə bir narahatlıq yoxdur. Azərbaycan istərdi ki, Gürcüstanda sabitlik olsun, özəlliklə də indiki hakimiyyət qorunub saxlansın. Çünki Azərbaycan dövləti ilə bu hakimiyyət çox yaxşı anlaşa bilir. Bizim Gürcüstan hakimiyyəti ilə narahatlığımız yoxdur. Təbii ki, söhbət hökumətdən gedir. Prezidentlə problem var. Zurabişvili keçmiş fransız vətəndaşı olub, həm də Fransanın Gürcüstandakı səfiri olub. İndiki davranış və yanaşması da Fransadan heç fərqlənmir. Faktiki olaraq az qala müharibə etmək fikrindədir. Amma yaxşı ki, o qərarverici durumda deyil. Əsas məsələ hökumətin əlindədir. İndiki hökumətlə də Azərbaycanın problemi yoxdur. Üstəlik də parlament seçkilərindən sonra Gürcüstanın hakim partiyası yenə də eyni adamın baş nazirliyə namizədliyini irəli sürüb. Səs çoxluğunun yuxarı olduğuna görə də təsdiqlənəcək. Azərbaycanla münasibətlər normal məcrada davam edəcək. Bizim üçün narahatlıq yaradacaq durum hələ ki, yoxdur. Ümumiyyətlə isə Azərbaycan daxildə öz imkanları çərçivəsində elə şərait yaradıb ki, kənardan heç bir siyasi qüvvə, başqa dövlətlər bizim iç işlərimizə qarışa bilmirlər. Ona görə Gürcüstanda, hətta hakimiyyət dəyişmiş olsa belə, yenə də Azərbaycanın itirəcəyi bir şey yoxdur. Xatırlayaq ki, Saakaşvilinin prezidentliyi dönəmində də Azərbaycanla Gürcüstan arasında heç bir problem yaşanmamışdı. Əksinə normal münasibətlər var idi. Baxmayaraq ki, Saakaşvili Qərbin adamı idi. Açıq şəkildə anti-Rusiya mövqeyindən çıxış edirdi. Amma Azərbaycan buna baxmayaraq Gürcüstanla normal münasibətlərdə idi. Ona görə də, indi narahatlıq üçün elə bir əsas görmürəm" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Korotçenko: “Paşinyanın hakimiyyətdə apardığı ”təmizləmələrin” arxasında bu məqsədlər dayanır”

**“Kaspi” Strateji Araşdırmalar İnstitutunun baş direktoru, ”Milli Müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko ”Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş nazirinin bəzi yüksət rütbəli məmurları ”təmizləməsi”nin səbəblərindən və bu prosesin Azərbaycanla sülh müqaviləsi bağlamaqla hansı əlaqəsinin ola biləcəyindən danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**







*- Ermənistanın baş naziri bu yaxınlarda hüquq-mühafizə orqanlarının və məhkəmə sisteminin işini sərt şəkildə tənqid etdi, bundan sonra Daxili İşlər Nazirliyi, İstintaq Komitəsi, Korrupsiyaya Qarşı Mübarizə Komitəsi, Ali Məhkəmə Şurasının rəhbərləri, İnfrastruktur naziri və Ərazi İdarəsi, Dövlət Gəlirləri Komitəsinin sədri istefa verib. Erməni mediası yazır ki, bunlar gözlənilən istefaların hamısı deyil. Ermənistan baş nazirinin bu qərarının səbəbi nədir?*

- Hesab edirəm ki, bu yolla Nikol Paşinyan ilk növbədə öz hakimiyyətinin təməlinin dayanıqlığını təmin etməkdə davam edir. Amma bu halda bu amillə yanaşı, başqa biri də var. Biz bilirik ki, Ermənistan Daxili İşlər Nazirliyinin keçmiş rəhbəri Vahe Kazaryan Ermənistanın hazırkı hökumət başçısının uşaqlıq dostudur. Və onları etibarlı bir əlaqə bağlayır. Eyni zamanda, bu gün respublikada postunu tərk edənlərin yerini təkcə Paşinyana şəxsən sadiq olanlar deyil, eyni zamanda, Vaşinqtonun ”stavka etdiyi” adamlar tutacaq. Bunlar Paşinyanın başına nəsə gəlsə, Ermənistan hakimiyyətin Qərbə sadiqliyini və davamlılığını təmin edəcək insanlardır. Qərbə lazım olan budur. Bunlar elə adamlardır ki, fors-major vəziyyət yaranarsa, Ermənistanın güc elitasında bu gün mövcud olan status-kvonun dəyişməsinə imkan verməyəcəklər.

Hazırda Daxili İşlər Nazirliyinin keçmiş rəhbəri Vahe Kazaryan müxalifətin çıxışlarını kifayət qədər sərt şəkildə boğması ilə ”məşhurlaşıb” və bu mənada o, yəqin ki, indi Paşinyan üçün o qədər də əlverişli fiqura çevrilməyib. Bundan əlavə, etiraf edirəm ki, Vaşinqton onun şəxsiyyətindən razı deyil, çünki Ermənistan hökumətində kimin və necə idarə olunmasına son nəticədə yalnız ABŞ qərar verir.

Eyni zamanda, inanıram ki, Kazaryan Ermənistan İstintaq Komitəsinin keçmiş rəhbəri Argişti Kyaryamyan kimi Paşinyana yaxın olduqları üçün siyasi dəstədən düşməyəcək, onlara bu və ya digər şəkildə tələb olacaq, lakin yeni statusda.

Biz bilirik ki, bu gün Ermənistanın dövlət orqanları və güc strukturları getdikcə daha çox Qərbin nəzarətinə keçir. Əvvəla, önəmli olan odur ki, Qərb bu ölkənin Təhlükəsizlik Şurasına nəzarəti ələ keçirib, ona birbaşa MKİ agenti deyilsə belə, ən azı, Amerika və Qərb QHT-ləri sistemindən keçmiş bir şəxs rəhbərlik edib. Bəli, Qərb öz mövqeyini gücləndirir və bu tendensiya tamamilə göz qabağındadır.

Erməni mətbuatında Paşinyanın növbədənkənar seçkilər keçirmək niyyəti ilə bağlı ”təmizləmə əməliyyatları” təşkil etməsi- seçkinin 2026-cı ildən gələn 2025-ci ilə keçirilməsi ilə bağlı versiyalar var. Deyirlər ki, o, Ermənistanda hər şeyin yaxşılığa doğru dəyişdiyini, korrupsiyaya qarşı mübarizənin getdiyini ictimaiyyətə nümayiş etdirmək istəyir. Və beləliklə, yenidən ictimai dəstək qazanır.

Bu versiya olduqca işlək görünür. Paşinyan üçün, əgər həqiqətən növbədənkənar seçki planını həyata keçirirsə, onun hakimiyyətinin güc strukturunun sabit olması və vəziyyəti dəyişmək üçün istənilən cəhdlərə sərt şəkildə müqavimət göstərməyə hazır olması vacibdir. Gördüyümüz kimi, bu işdə Qərb ona kömək edir.

Bundan başqa, belə bir versiya var ki, Paşinyan növbədənkənar parlament seçkiləri keçirdikdən və bununla da əhali arasında legitimliyini təsdiqlədikdən sonra ölkə Konstitusiyasının dəyişdirilməsi və Azərbaycana qarşı ərazi iddialarının oradan çıxarılması prosesinə keçəcək. Bundan sonra Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalana bilər. Belə bir ehtimal var. Bunun baş vermə şansı 50/50-dir, hər şeyin belə olub-olmayacağını söyləmək hələ də çətindir. Ermənistan bu gün elə bir ölkədir ki, nəyisə proqnozlaşdırmaq və bu və ya digər qərarın elan olunsa belə, mütləq həyata keçiriləcəyini iddia etmək çətindir. Bir şans var, amma bunun həqiqətən necə olacağını görəcəyik.

Məlum olduğu kimi, Azərbaycan sülh sazişinin hər hansı qısaldılmış ilkin variantını imzalamaq niyyətində deyil. Bu, Azərbaycanın siyasi mövqeyinin əsasıdır ki, yalnız tam hüquqlu, hüquqi cəhətdən şəffaf və Azərbaycanın mövqelərini qoruyan, Prezident İlham Əliyevin təklif etdiyi 5 əsas prinsipə əsaslanan vicdanlı sülh müqaviləsi imzalanacaq. Azərbaycan Respublikası üçün vacib olan məqamları istisna edən bir növ ilkin aralıq razılaşma mümkün deyil. Yeri gəlmişkən, belə bir razılaşma Rusiyaya da yaraşmır.

*- Paşinyan Trampa zəng edərək onu ABŞ prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib. Bu hansı niyyətlə edilib?*

- Trampı gələcək siyasi oyununa cəlb etmək üçün. Yaxşı, zəng etdin, sonra nə? Çox adam Trampa zəng edib. Bəs bu nədir? Tramp gözlənilməz fiqurdur. Amma ABŞ-ın erməni lobbisini proqnozlaşdırmaq olar. Artıq o, ABŞ-ın yeni administrasiyasının əsas nazirlik və idarələrinə rəhbərlik edəcək yeni fiqurlara yanaşmalar axtarır ki, Azərbaycanın zərərinə ermənipərəst mövqe tutmaq üçün öz təsir rıçaqlarına sahib olsun.

*- Tramp iddia edir ki, o, Ukrayna ətrafında münaqişəyə son qoymaq istəyir. Biz Paşinyanın Rusiyaya müraciət edə bilməyən Kiyevi dəstəkləmək prinsipinə necə əməl etdiyini görürük. Bu yaxınlarda Budapeştdə o, Zelenski və Ursula fon der Leyen ilə üçtərəfli formatda əlaqə saxlayıb. Ötən gün Paşinyanın həyat yoldaşı İtaliyada ukraynalı uşaqları ziyarət edib.*

- Bu, xəbər deyil, ardıcıl siyasətdir. Paşinyanın həyat yoldaşının əvvəllər Kiyevə necə getdiyini, Zelenskinin arvadı ilə necə görüşdüyünü xatırlayırıq. Və Ukraynaya qarşı bu sərtliklər- Rusiya onları çoxdan görür və onların qanunauyğunluğunu görür. Ermənistanın baş naziri Belarus müxalifətinə qarşı da eyni yanaşır. Nəhayət, Paşinyan Zaqafqaziyada sabitliyin əsas bəlası deyil. Əsas pislik təkcə Qərbin Cənubi Qafqazda öz nizam-intizamı tətbiq etmək cəhdləri deyil, həm də onunla birgə özlərini geosiyasətin müstəqil subyekti kimi formalaşdıran və təqdim edən və çox vaxt bu prinsiplərə əsaslanan ”Miatsum” və digər tarixi fobiyaların ideyaları haqqında qərarlar qəbul edən aqressiv, revanşist, millətçi dünya erməniləridir.

***Tərcümə - Elçin Bayramlı***



# Niyə özünüzü döyürsünüz, ay yazıqlar?..

**MƏTANƏT**

***Sosial şəbəkələr bu günlər özünü döyən, şapalaqlayan, pəncərəyə yaxınlaşıb oradan atmaq istəyən adamlarla dolub. Seyr etdikcə, bilmirsən, ağlayasan, yoxsa gülləsən. Bilirsiniz niyə belə edirlər? Axı biz yamsılamaqda mahirik. Nədir, nədir ki, ”Leyla” adlı yeni bir türk serialı çıxıb, orada məşhur aktrisa Gonca Vuslaterinin bir səhnəciyi var və oyunçu burada xüsusi jestlər edib.***

Adama deyərlər ki, ay yazıqlar, aktrisa rolunu oynayır, pul qazanır. Ora bu jestlərlə xüsusi çalar qatır ki, daha da məşhurlaşsın, yaddaqalan olsun. Bəs siz nə üçün onu təqlid edirsiniz? Hansı sosial şəbəkəyə girirsən ki, məşhur aparıcı, aktyor, tiktoker, bloqer, sadə vətəndaşlar da evdə, bayırda bu aktrisanı təqlid edir, özlərini döyür, şapalaqlayır, pəncərəyə yaxınlaşır, guya özünü atmaq üçün...

Əslində yaxşı edib özünüzü döyürsünüz. Döyün, lakin ona görə döyün ki, biz nə üçün bu günlərə qaldıq...

Döyün, şapalaqlayın özünüzü. Ona görə döyün ki, nə olub bizə ki, özümüzü unudub başqaları olmağa çalışırıq...

Döyün, lakin ona görə döyün ki, özümüzü nə üçün sosial şəbəkələrdə bu günə qoymuşuq. Bütün dünyanın gülünc hədəfinə çevirmişik...

Döyün, ona görə ki, əsrlərdən bəri qorunub saxlanan adət-ənənələrimizi biz qoruya bilməyib, bu günün sosial mənzərəsində yaman günə qoymuşuq...

Döyün, özünüzü şapalaqlayın, lakin kimisə yamsılamaq üçün deyil, televiziya məkanımızı əttökən verilişlələ doldurub, mənəvi kasıblıq, hətta ”aclıq” yaradanlarla mübarizə apara bilmədiyiniz üçün döyün...

Döyün, lakin ona görə döyün ki, yüzlərlə ağıldankəm adam onların başına sosial bir daş salmaqdan başqa bacarığı olmayan tiktoker, bloqerlərin qurbanı olur...

Döyün, ona görə döyün ki, uşağınızı çıxarıb Tiktokda bütün dünyaya nümayiş etdirir, hüququnu kobudcasına pozur, onu satırsınız. Körpələrinizə köks ötürürlər, onlar xəstələnir, başına min bir oyun gəlir, lakin siz o gül balalardan istifadə edib pul qazanırsınız...

Döyün, ona görə özünüzü döyün ki, nənə-babalarınızı danışdırıb, onların şirin-şəkər söhbətini məsxərə şəklində videolara köçürüb Tiktokda paylaşaraq ”like” qazanısınız...

Döyün özününzü, lakin ona görə döyün ki, qadın qadınlıqdan, kişi kişilikdən çıxıb, sosial şəbəkələrdə arsız bir varlığa çevrilib, arın, həyanın, əxlaqın daşını atıb. Lakin bu daş da onlardan abırlı olduğu üçün bir küncə düşüb qalıb, qayıdıb boş başlara dəyib oradan qan çıxarmır ki, barı qandan qorxa bələləri, oyana...

Döyün, özünüzü yetərincə döyün, şapalaqlayın, lakin nə yediyinizi, nə içdiyinizi dünyaya nümayiş etdirdiyiniz üçün. Ac-yalavac insanlara hətta Ramazan süfrələrinizi belə nümayiş etdirdiyiniz üçün özünüzü döyün. ”Bəlkə kimdəsə bunlardan yoxdur” kimi insani duyğuları ağlınıza gətirmədiyiniz üçün döyün özününzü...

Döyün, bəli, dəfələrlə döyün, lakin kimisə yamsılamaq naminə deyil, soyunub sosial ekranlara çıxdığınız üçün, yad kişi görəndə yaşmağını gözünün altına qədər qaldıran Azərbaycan qadınına xilaf çıxdığınız, qara ləkə oluğunuz üçün özünüzü döyün...

Döyün, qoca, xəstə ata-ananızı aylar, illərlə ziyarət etməyib, onların kefini məhz sosial şəbəkələrdə onlayn soruşmağınız üçün özününzü döyün...

Döyün özünüzü, sosial şəbəkələrdə ağzınıza gələni danışdığınız, əxlaq kodeksindən, etik normalardan, saygı, hörmət hissindən kənar olduğunuz üçün döyün...

Döyün, şapalaqlayın sifətinizi. Bəlkə söz təsir etməyənləri öz şillələrinin zərbəsi oyadar. Harada nə etdiyinin fərqinə varar...

Döyün, şapalaqlayın özünüzü: özünüzə qayıtmaq, özünüz olmaq, hər gün bir kimsəni yamsılamamaq, təqlid etməmək üçün, DÖYÜN!

# İctimai münasibətlərin və xidmətlərin müasir Azərbaycan modeli

*Prezident İlham Əliyev: "Bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir"*

***Son illərdə dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və bu gün onun tabeliyində "ASAN xidmət" mərkəzləri xidmət göstərir ki, bu da qısa müddətdə özünü doğrultdu.***

"ASAN xidmət" mərkəzlərinin yaradılması vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, peşəkarlıq səviyyəsinin artırılması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi kimi məqsəd daşıyır.







## "ASAN XİDMƏT" DÜNYAYA NÜMUNƏDİR

Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bu onu göstərir ki. Azərbaycan uğurlu inkişaf modedlinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir". Müasir dövrümüzdə "ASAN xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var. "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülüb. Bu modeldən dünya ölkələri bəhrələnir. Dövlət xidmətlərinin səmərəliliyinin artırılması hazırda bir çox ölkələr üçün önəmli çağırışlardan biri olduğundan tərəfdaş ölkələrlə "ASAN xidmət" modelinin tətbiqi, təcrübələrin paylaşmağı istiqamətində fəal əməkdaşlıq aparılır. Beynəlxalq qabaqcıl təcrübə kimi "ASAN xidmət" modeli Afrika ölkələri üçün təqdim olunub. Artıq Əfqanıstanda eyniadlı qurum təsis edilib.

## AZƏRBAYCANIN İNAMLI İNKİŞAFININ GÖSTƏRİCİSİ

Göründüyü kimi, bu gün Azərbaycan dünyaya inteqasiya edir, öz məhsullarını dünya bazarına çıxarır, moderin, yenilikçi ölkə olaraq dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Əvvəllər yeni texnologiyalar, yeniliklər xaricdən Azərbaycana gətirildiyi halda, müasir dünyamızda Azərbaycan bu yeniliklərlə dünyanı təəccübləndirir. İnkişaf etmiş ölkələr intellektual məhsulun sahibi kimi çıxış edirdilərsə də bu gün Azərbaycanda intellektual məhsulu yaradılıb. Cənab İlham Əliyev "ASAN xidməti" xalqımızın intellektual səviyyəsinin, Azərbaycanın inamlı inkişafının göstəricisi kimi dəyərləndirir.

Bu gün ölkəmizdə məkəzlərin sayı artmaqdadır. 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk "ASAN xidmət" mərkəzinin açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirməklə 15 yanvar tarixində fəaliyyətə başladı. 3 may 2013-cü ildə isə Sumqayıt "ASAN xidmət" mərkəzinin açılışı oldu. Beləliklə davamlı olaraq "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Gəncədə, Sabirabadda, Masallı və Qəbələdə, Qubada, İmişlidə və Şəkidə və digər yerlərdə fəaliyyətə başlayıb. Əlbəttə ki, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb.



## 400-DƏN ÇOX EKOLOJİ LAYİHƏ

ASAN Könüllüləri Gənclər Təşkilatı "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən könüllüləri birləşdirir. Təşkilat 23 oktyabr 2013-cü ildə yaradılıb. Elə həmin il təşkilatın ilk qurultayı keçirilib. Təşkilat könüllülər üçün təlimlər, müxtəlif layihələr, yay məktəbləri təşkil edir. Hal-hazırda 30 mindən çox üzvü var. Könüllülərlə doqquz il ərzində fədakar işin nəticəsində 2 min 200 tondan çox kağız uğurla təkrar emal edilib və 37 min 400-dən çox ağac xilas olunub. Ümumilikdə, 400-dən çox ekoloji layihə keçirilib və 100-dən çox ağacəkmə və təmizlik aksiyası təşkil olunub. Gənclər təşkilatı isə "ASAN Məktub" sosial proqramı, "Əsgərə Məktub" layihəsi, "Mədəniyyət Carçısı" proqramı layihələrini təşkil edib.

2013-cü ilin iyunun 1-dən etibarən "ASAN xidmət"in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Səyyar avtobuslar hər bölgədə təxminən iki həftə qalırlar. Hal-hazırda xidmət göstərən səyyar avtobusların sayı ondur. Bakı və Sumqayıt şəhərində qeydiyyatda olan vətəndaşlar bu xidmətdən sifarişlə istifadə edə bilirlər. İndiyə qədər səyyar "ASAN xidmət"ə 2 600 000 çox müraciət edilib.

Onu da bildirək ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin tapşırığı əsasında "ASAN xidmət" mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar "ASAN qatar" konsepsiyası reallaşdırılıb. Bu sırada Prezident İlham Əliyevin 2016-cı ilin mayında imzaladığı Fərmanla "ASAN kommunal" mərkəzlərinin yaradılması da qeyd olunmalıdır. Qısa müddətdə "ASAN kommunal" xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər görüldü. "ASAN Kommunal" mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir. Hazırda Bakı şəhərində 3 "ASAN Kommunal" mərkəzi fəaliyyət göstərir.

## VƏTƏNDAŞLARIN "ASAN XİDMƏT"DƏN MƏMNUNLUQ SƏVİYYƏSİ 99,8 FAİZDİR

Ümumiyyətlə, bu gün Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin, həyatın firəvanlığına yönəlib. Buna Azərbaycanın bütövlükdə inkişafı imkan verir. "Ölkəmiz müasirləşir, inkişaf edir. "ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar, - deyən Cənab İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. "ASAN xidmət"i fərqləndirən cəhət onun vətəndaş məmnunluğuna və dövlət sektoruna duyulan inama diqqət yetirməsidir. Bunun nəticəsidir ki, bu gün vətəndaşların "ASAN xidmət"dən məmnunluq səviyyəsi 99,8 faiz təşkil edir. Bu mərkəzlərdə yeni texnologiyalar, innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin, yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

***Zümrüd BAYRAMOVA***

# “Serial” xəstəliyi

Serialların həyatımıza daxil olması da müasir texnologiyanın yeniliklərindəndir. Elə ki, sovet dövrü başa çatdı, standart televiziya formasından çıxdıq, müasir antenlər, kabel televiziyaları sərhədləri aşmağımızla, dünyanın evimizə gəlməsi ilə nəticələndi. Bu, o vaxt idi ki, hələ ölkəmizin televiziya məkanında çoxseriyalı filmlərdən söhbət getmirdi. Lakin biz artıq türk, rus və Rusiya və Türkiyə telekanallarının dublyaj edərək təqdim etdiyi xarici ölkələrin-Amerika, Almaniya, Yaponiya və sair, xüsusilə Meksika seriallarına baxmaqdaydıq. Sovet imperiyası dövrünün xüsusi və senzuralı televiziya məkanından yenicə azad olunmuş insanlar sanki azadlığa çıxıblarmış kimi bu serialların bir saniyəsini belə ötürmürdü. Elə serial meyli də o zaman yaranmağa başladı. Elə olurdu ki, bir seriala bütövlükdə ailə tamaşa edirdi; yaşından, təhsilindən, dünyagörüşündən asılı olmayaraq sanki hər kəs axtardığını həmin seriallarda tapmağa çalışırdı. Beləliklə, biz səhv şəkildə serial izləmək prosesinə başladıq ki, bu, sonralar serial xəstəliyinə çevrildi.

Bu xəstəlik ildən-ilə irəlilədikcə, bizdən elə dəyərləri aldı ki, bir də baxdıq ki, onların aldıqları yanında verdikləri heç nədir. Belə isə seriallardan və onların müasir dövrdə həyatımızda oynadığı roldan danışaq.








## Seriallar bizdən nələri aldı?..

Öncə vurğulayaq ki, biz Rusiya telekanallarında izlədiyimiz çoxseriyalı filmlərə onların deyimi ilə ”serial”, Türkiyə telekanallarında izlədiklərimizə isə ”dizi” deyirik. İllərdir ki, serial xəstəsinə çevrilmişik. Serial izlədiyimiz üçün ailələrimizdə yüzlərlə problemlər baş verib, ilkin olanları sadalayaq; ər işdən gəlib, yeməyi hazır görməyib; evi dağınıq, mətbəxi çirkli qabla dolu görüb; uşaq bağçada, məktəbdə qalıb, ana onu götürməyə yubanıb; uşaq saatlarla ac qalıb, ana isə televizor qarşısında; uşağın əlinə telefon verilib ki, səsi kəsilsin, ana isə serial, izləyib, nəticədə isə uşağın nitq qüsurları yaranıb; uşaq evdə qalmaqdan vitamin çatışmazlığı ilə əziyyət çəkməyə başlayıb, ana isə onu açıq, günəşli havada gəzdirməyə çıxarmaq əvəzinə, serialı üstün tutub; bir televizor olan evlərdə ər futbola baxmaq istəyəndə arvadın serial saatı olub, dava-dalaş haraya qalxıb, həftələrlə küsülülük yaranıb; serial səbəbi ilə neçə-neçə televizorlar ər-arvad qalmaqalının qurbanı olub, zibilliyə atılıb, yerinə kreditlə götürüləni qoyulub, lakin kredit bitmədən yeni qalmaqala görə o da əvvəlki televizorun yanına gedib; əvvəllər bir evdə bir televizor olardı, uşaq-böyük üçün də bəlli saatlar olardı, hər kəs öz saatında televiziya izləyərdi, lakin seriallar həyatımıza daxil olandan sonra evlərdə iki televizora ehtiyac olduğu ortaya çıxdı; kimi kreditlə, kimi hansısa vacib ehtiyacını bir kənara qoymaqla evinə ikinci televizoru






da aldı ki, nədir-nədir ər-arvad arasında dava-dalaş başlamasın; iki televizor ailələrin bir-birindən saatlarla aralı qalması ilə nəticələndi; uşaqlar özbaşına qaldı, dərslərinə kömək üçün ataya müraciət edəndə ananın yanına, anaya müraciət edəndə atanın yanına göndərildilər; ”səs salma” deyilərək otaqdan-otağa qovulan uşaqlar ya dəhlizə, ya mətbəxə, ya da öz otaqlarına sığınaraq başlarını nə iləsə qatmağa çalışdılar.

## Bir də baxdıq ki...

Bilmirəm, hələlik dərk edirik, yoxsa etmirik, yaxşı-yaxşı baxsaq görərik ki, uşaqlarımızı seriallara çoxdan qurban vermişik. Ata öz serialının, ana öz dizisinin seyrçisinə çevrildikcə, bunlar uşaqlarımızın tərbiyə zamanını, təlim vaxtını bizdən qoparıb. Yadımıza sala bilərikmi, son dəfə uşaqlarımızla birlikdə hansı bir Azərbaycan filmini izləmişik? Və yaxud da gedək məktəblərdə sorğu keçirək, görək, 1-ci sinifdən 11-ci sinfədək uşaqlardan neçəsi Azərbaycan filmlərindən 3-nün adını saya biləcək? O filmlər ki, mənəvi, ailə dəyərlərimizin və milli mentalitetimizin saxlanc yeridir.

Baxsaq, görərik ki, seriallara baxa-baxa uşaqlarımızla aramızda olan körpünü öz əllərimizlə yandırmışıq. Onlara gün ərzində cəmi 1-2 saat ayıra bilirik, ya bilmirik. Uşaqlarla son dəfə nə vaxt oturub dərdləşmişik, problemləri ilə maraqlanmışıq? Onlarla birlikdə dərs hazırlamağı belə unutmuşuq. Uşaqlarla oynamağı, gəzintiyə çıxmağı çoxdan yadırğamışıq.

Biz o vaxt ayılırıq ki, bir övladımız intihar edir və ya intihar etməyə cəhd göstərir. Bu zaman isə sanki qəflət yuxusundan oyanıb günahın kimdə olmasını axtarmağa başlayırıq. Məktəbə hücum çəkir, uşağımızın sinif yoldaşları ilə danışmağa başlayırıq. Axı bu uşağa nə oldu, nə üçün belə bir hərəkətə qərar verdi, deyir, günahı özümüzdən başqa hər kəsdə axtarmağa başlayırıq. Nədənsə anlamaqda çətinlik çəkirik ki, biz son dəfə nə vaxt bu uşaqla maraqlanmışıq, onunla söhbət edib iç dünyasını öyrənməyə, ona dayaq olmağa çalışmışıq...

Bir də baxırıq ki, uşaq 5-6 yaşına çatıb, danışa bilmir. Bu dəfə serialımızın bir bölümünü təxirə salıb xəstəxanaları qapı-qapı gəzirik. Həkimlər deyir ki, bəs uşaq o qədər tək qalıb, danışdıran olmayıb ki, nitqi gecikib. Buna əməlli-başlı müalicə lazımdır. Nə bilim, loqopedə aparılmalı, kurs-kurs müalicə almalıdır.

Bir də baxırıq ki, qızımız, oğlumuz gəlib 8-10 yaşına çatıb, məktəbdə uşaqlara qaynayıb-qovuşa bilmir. Deyirik ki, bu uşaq niyə belə oldu? Nə bilim, filan nənəsi belə idi, filan bibisinə, xalasına çəkib. Lakin anlamaqda çətinlik çəkirik ki, biz serialların qarşısında saatlarla oturan zaman uşağa ”səsini kəs”,- deyib onu bir küncə sıxışdırmışıq. Həmin küncdə uşaq o qədər səssiz-səmirsiz, hərəkətsiz qalıb ki, indi məktəbdə sinif yoldaşları ilə ünsiyyət qura bilmir, bir sözlə, sosiallaşmaqda əziyyət çəkir.

Bir də baxırıq ki, yeniyetmə oğlumuzdan siqaret qoxusu gəlir. Nə yaxşı da ki, seriallar bu qoxunu almağa imkan verir. Həmin an sanki bizə çatır ki, uşaq əldən gedir. Bu zaman düşünməyə başlayırıq ki, bu siqaretin axırı yaxşı olmaya bilər. Uşaq pis yola düşər, aldadıla bilər. Bu gün dodağına siqaret dəyən uşağımız sabah başqa bir vasitəni dodaqlarına apara bilər. Bu zaman başlayırıq uşağa dişimizin dibindən çıxan sözləri deməyə: sən getdin kimə çəkdin? Mən sənə belə tərbiyə vermişdim? Nə üçün bizi öldürürsən, kimlərə qoşulmusan, kimlərlə oturub-durursan? Lakin bircə dəfə anlamağa çalışmırıq ki, bütün bunları aylar öncə nəzarətə götürməli idik.

***Ardı Səh. 11***

# "Serial" xəstəliyi

Əvvəli Səh. 10

Uşağa vaxt ayırıb onunla maraqlanmalı, yeri gələndə dost, yeri gələndə düşmən olmaqla, onu təkbaşına buraxmamalı idik. Atanın öz serialına, ananın öz dizisinə başı qarışanda, uşağın aqibətinin belə olacağını nə üçünsə üzərimizə götürmür ki, götürmürük. Və bütün bunlar kimi onlarla misal söyləmək olar...

## Ailələrimizi dağıdan seriallar...

Serial xəstəliyi evimizdən, azyaşlı uşaqlarımızdan savayı, həm də gənc oğlan və qazlarımıza, hətta özümüzə də zərər verir. Axı hamı seriallardakı hadisələri eyni cür qavraya, dərk edə bilmir. Böyük əksəriyyət serial izləyərkən onu real həyata çox yaxınlaşdırır və düşünür ki, bizim də həyatımız belə ola bilərdi, lakin nə üçün belə deyil. Və yaxud da serialda bu hadisə belədirsə, bu qadın bu addımı atırsa, bu kişi bunu edirsə, biz də edə bilərik. Lakin axı əslində belə deyil. İstənilən ölkənin film və serialları ən yüksək səviyyəli həyatları təqdim edir. Biz nə üçünsə həmin filmlərdəki aşağı səviyyəli həyatları görə bilmir, öz həyatımızın da həmin yuxarı səviyyəli həyatlara bənzəməsini qarşımıza məqsəd qoyuruq. Hansı ki, o həyatlarla bizim real həyatımız arasında yerlə göy qədər fərq var.

Serialda qadın belə geyinir, biz də geyinməliyik. Kişi filan maşını sürür, biz nə üçün sürməyək? Ən pisi isə serial-dizilərdəki qadın-kişi, valideyn-övlad münasibətlərindən pay almağımızdır. Məsələn, gənc qızın anaya "mənim işlərimə qarışma", gənc oğlanın otağının qapısını atanın üzünə çırpıb "mən tək qalmaq istəyirəm", deməsi kimi. Qadının həyat yoldaşı ilə hesablaşmaması, kişinin həyat yoldaşını bəzi hərəkətləri ilə təhqir etməsi kimi. Və onlarla sadalaya biləcəyimiz bir-birinə oxşar misallar...

Bütün bunların hamısını seriallar bəxş edib bizlərə. Bunları söyləməklə məqsədimiz bütün serial-diziləri pisləmək deyil. Bəli, sanballı dizilər var, onlarda öyrənməli, dərs götürməli, əxz etməli çox məqamlar var. Lakin gündəlik, təxəyyül məhsulu olan seriallar da var və düşünəndə ki, insan övladının əksəriyyəti pisi götürməyə meyllidir, bəli, çoxseriyalı filmlərdə yetərincə belə məqamlar var. Onları da ki, götürən götürəndir. Bu səbəbdən də ailələr dağılır, ailə münasibətlərinə xələl gəlir, ər-arvad münasibətləri kəskin şəkildə pozulur. Bir sözlə, biz özümüzün olanlarla deyil, serial-dizilərdəki həyatları yaşamaqla özümüzə zərbə endiririk. Bu özünü istər ər-arvad, valideyn-övlad, istərsə də qohum-əqrəba münasibətlərində aydın şəkildə göstərir. Xüsusilə qayınana-gəlin münasibətlərinə isə birbaşa təsir göstərir.










## Serial xəstəliyindən romantika mərəzinə

Gənc oğlan-qızlarda isə serial xəstəliyi yeni bir mərəz formalaşdırıb: romantika xəstəliyi. Qızlarımız sevgililərindən artıq dizilərdəki kimi böyük gül buketləri, bahalı hədiyyələr qəbul etmək, onlarda dizilərdəki maşınlardan olmasını, bahalı kafe-restoranlarda əylənmək istəyirlər. Oğlanlar özlərini serial qəhrəmanlarına bənzədib xüsusi "əda" nümayiş etdirirlər. Maşını onlar kimi qeyri-adi sürməyə, qapısını çırpmağa çalışırlar.

Seriallardakı geyimlər isə lap çoxdan gənc qız və oğlanlara sirayət edib. Artıq hər bir serialda gördüyümüz gənc qız və oğlanların geyimlərini gündəlik həyatımızda hər addımda görürük. Saç forması, makiyaj da eynilə.

Qızlarımız hətta evlənmək təklifini də seriallardakı romantik şəkildə almaq istəyir. Sosial şəbəkələrdə tez-tez qarşılaşdığımız videolar, paylaşmalar bunu deməyə əsas verir. Kimi ona alınan böyük ölçülü gül buketini, kimi ad gününə hədiyyə olunan lent və güllərlə bəzədilmiş maşını, kimi romantik evlənmə təklifini, kimi dəbdəbəli-eyni ilə seriallardakıtək nikahını, kimi hamiləliyini, kimi uşağın cinsiyyət "partisini" və sair nümayiş etdirir. Bütün bunlar isə bizə serial və dizilərdən gəlir. Zəif gənclər baxır və öz həyatlarına da tətbiq etməyə çalışırlar.

Lakin bunların hamısını etməyə bütün gənclərin imkanı və gücü çatmır. Bu səbəbdən də romantika xəstəliyini daha ağır şəkildə yaşayanlar var. Arzularının da qarışdığı bu xəstəlik gündən-günə onları məhv edir, bunların istənilən birini həyata keçirmək üçün çox halda ümumilikdə həyatlarından, mövqelərindən məhrum olurlar. Beləliklə, serial və dizilər yaxşılarla bərabər, pisləri də təlqin edir, lakin biz nə üçün yaxşıları yox, pisləri həyatımıza tətbiq etməyə çalışırıq, elə maraqlı olan da budur...

## Serialların mövzusuna gəlincə...

Serial və dizilərin mövzusuna, baş verən hadisələr ətrafında gedişata gəlincə isə demək olar ki, 3-4, bəzən 5 il davam edən dizilərə rejissorlar elə hadisələr əlavə edib onun reytinqini qaldırmağa, gündəmdə saxlamağa çalışır ki, adam olanlara bəzən inana belə bilmir. Yəni, reytinq üçün hadisələr məhvərindən çıxıb yeni bir axara düşür. Belə olanda isə tamaşaçı onsuz da əksəriyyətinin süjet xətti normal olmayan serialların axarında itib-batır.

Məsləhətdir ki, bu gün hər birimizin evində çağırılmamış qonaq olan serial və dizilərdən bir qədər kənar olmağa çalışaq. Birincisi, onların böyük əksəriyyətinin həyat reallığından kənar olduğu üçün. İkincisi, bu serial və dizilərin bizim coğrafiyamızdan, mühitimizdən, ailə dəyərlərimizdən, tərbiyəmizdən çox uzaq olduğu üçün. Üçüncüsü isə yuxarıda da qeyd etdiyim kimi, aldıqları verdiklərindən çox olduğu üçün. Bu səbəblərdən də onların yerini başqa faydalı əyləncələrə, məsələn, kitab oxumaq, ev işləri ilə məşğul olmaq, ailə qayğıları ilə maraqlanmaq, uşaqların tərbiyəsi, gələcək üçün xeyirli vətəndaş yetişdirmək, körpələri təmiz havaya çıxarmaq, yemək, şirniyyat hazırlamaq, daha hansısa faydalı, bacardığımız bir iş üçün ayırmaq lazımdır.

Əks təqdirdə bizim cəmiyyətimizə, mentalitetimizə uyğun olmayan, çoxlarımızın həyatı ilə təzad təşkil edən serial və dizilər qarşıda bizdən çox şeylər alacaq. Sonrakı peşmançılığın acı nəticəsini yaşamamaq üçün bu gün özümüzə qayıtmaq zamanıdır... Qayıdaq ki, peşman olmayaq!

***Mətanət Məmmədova***



# Lüksemburq hələ də özünü dövlət hesab edir

## Lüksemburq Deputatlar Palatasının Azərbaycan haqqında qəbul etdiyi qətnamənin müəllifi heç şübhəsiz ki, Fransa dövləti, onun prezidenti Makrondur



Azərbaycan dünyada sabitlik adası olaraq tanınır və qəbul edilir. Beynəlxalq aləmdə gedən istənilən ictimai-siyasi proseslərdə Azərbaycanın irəli sürdüyü təkliflər birmənalı şəkildə dəstəklənir. Bu isə ölkəmizin dünyanın aparıcı dövlətlərindən biri olduğunu bir daha təsdiqləyir. Ölkəmizin dünya birliyindəki nüfuzu yüksəldikcə, dostlarının da sayı artır. Hazırda ölkəmizlə əməkdaşlıq etmək istəyən, iki və çoxtərəfli müqavilələrin imzalanmasında maraqlı olan dövlətlərin sayı kifayət qədər çoxdur. Məhz bu cür inamın nəticəsidir ki, 200-dən çox ölkənin dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsinə qərar verildi. Əldə olunan uğurlar, qazanılan nailiyyətlər bəzi Avropa ölkələrinin narahatlığına səbəb olub. Çünki onlar müsəlman-türk dövlətinin dünya siyasətində aparıcı rol almasını heç cür həzm edə bilmirlər. Digər tərəfdən uzun illər himayədarlıq etdikləri Ermənistanın 44 günlük Vətən Müharibəsi ilə sıradan çıxardıb, torpaqlarını azad etməsi ilə barışmağa çətinlik çəkirlər. Ona görə də, müxtəlif iyrənc vasitə və üsullarla Azərbaycana qarşı qərəzli qətnamələr qəbul edir, utancverici hesabatlara yayırlar. Fransa, Almaniya, ABŞ kimi dövlətlər Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla nəticə əldə edə bilmədiklərini, əksinə özlərini pis vəziyyətə saldıqlarını anladıqlarından dövriyyəyə dünya xəritəsində it sümüyü formasında görünən "cırtdan"ları dövriyyə salıblar. Uzun əsrlər Fransanın, Hollandiyanın, Almaniyanın və Belçikanın tərkibində balaca bir əyalət olaraq fəaliyyət göstərmiş Luksemburqun meydana çıxarılaraq Azərbaycana qarşı şər və böhtan kampaniyasında "gücünü" sınamağa çalışması buna misal ola bilər.

### Azərbaycan Milli Məclisi Lüksemburq Deputatlar Palatasının qəbul etdiyi qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirir

Luksemburq kimi üzdəniraq "cırt"dan dövlətciyəz noyabrın 20-də Deputatlar Palatası adından Azərbaycana qarşı qərəzli qətnamə qəbul edib. Lüksemburq Deputatlar Palatası da himayə olunduğu Fransa tərəfindən guya Azərbaycanda insan hüquqları pozulur, söz azadlığına qarşı əngəllər var və bu kimi saxta ittihamlar irəli sürülüb. Başlıca azarlarını da qeyd ediblər. Kağız parçası hesab olunan sənəddə Qarabağdakı terrorçu dəstə başçılarının həbs edilməsindən narahat olduqlarından, onların azad edilməsinin vacibliyini qeyd ediblər. Eyni zamanda iddia edirlər ki, Azərbaycan AŞPA deputatlarına qarşı tətbiq etdiyi sanksiyanı aradan qaldırmalıdır. Lüksemburq Deputatlar Palatasının qəbul etdiyi anormal qərara Azərbaycanın Milli Məclisi sərt münasibət bildirib. Bundan əvvəldə xüsusilə də Vətən Müharibəsində əldə olunan parlaq hərbi qələbədən sonra Luksemburq hakimiyyət nümayəndələri Fransanın təhriki ilə Azərbaycana qarşı xislətinə uyğun hədyanlar səsləndirmişlər. Hətta Lüksemburqun Deputatlar Palatasının sədri Klod Visler cari ilin mayın 22-də Ermənistana səfəri çərçivəsində parlamentdə çıxışı zamanı Azərbaycanın ünvanına bir sıra ittihamlar səsləndirmişdir. O zaman olduğu kimi bu dəfə də Azərbaycan Milli Məclisi Lüksemburq Deputatlar Palatasının qəbul etdiyi qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirib, ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd etdiyini qeyd etmişdir: "Lüksemburq parlamentinin bu siyasi aksiyası həmin ölkənin parlamentinin siyasi avantüra meydanına çevrildiyini göstərir. Azərbaycanın suverenliyinə aşkar hörmətsizliyin, onun milli təhlükəsizliyinin, ictimai sabitliyinin və ərazi bütövlüyünün qorunması üçün görülən tədbirlərə etinasızlığın nümayiş etdirildiyi qətnamədə ölkəmizdə cərəyan edən proseslər ilə bağlı qaldırılan məsələlər daxili işlərə kobud müdaxilədən başqa bir şey deyil. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkiləri barəsində irəli sürülən iddialar tamamilə əsassızdır. Seçki praktikasının təkmilləşdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi irəliləyiş beynəlxalq miqyasda təsdiqlənib. Seçkilər milli qanunlara və beynəlxalq öhdəliklərə tam uyğun keçirilib.Özbaşına həbslər, fikir və toplaşma azadlığının məhdudlaşdırılması barədə qətnamədə ifadə edilən fikirlər kobud təhriflər üzərində qurulub. Müxtəlif hesabatlarda adları hallandırılan şəxslərin həbsləri milli qanunların pozulduğunu göstərən tutarlı sübutlar əsasında həyata keçirilmiş və bu zaman lazımi hüquqi prosedurlara əməl edilib".

Azərbaycanın Milli Məclisin açıqlamasında o da vurğulanır ki, Lüksemburq parlamentinin qəbul etdiyi qətnamədə siyasi məhbuslar ilə bağlı irəli sürülən iddialar əsassızdır və Azərbaycanın gözdən salınmasına yönələn kampaniyanın tərkib hissəsini təşkil edir. Azərbaycanda vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, demokratik proseslərin möhkəmləndirilməsi üçün göstərilən səylərin üzərinə kölgə salmaq cəhdi təəssüf doğurur: "Avropa Şurası Parlament Assambleyasının 76 deputatının, o cümlədən Lüksemburq Deputatlar Palatası üzvlərinin "persona non qrata" elan olunması məhz Azərbaycanın sülh və sabitlik yaradılması səylərinə zidd hərəkətlərin fəal surətdə dəstəklənməsi, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə aşkar hörmətsizliyin nümayiş etdirilməsi ilə bağlı olub. Həmin tədbirlərin ləğvinə çağırış bu cür dəstəyin ikitərəfli və çoxtərəfli münasibətlər üçün doğurduğu ağır nəticələrin dərk edilmədiyini göstərir. Azərbaycan Lüksemburq da daxil olmaqla, bütün beynəlxalq tərəfdaşlar ilə konstruktiv dialoqa sadiqdir, lakin bu cür dialoq qarşılıqlı hörmətə və beynəlxalq hüquqa riayət edilməsinə əsaslanmalıdır. Bununla əlaqədar Azərbaycan Milli Məclisi Lüksemburq Nümayəndələr Palatasından aqressiv ritorikanı kənara qoymağı, eləcə də parlament dialoqu və diplomatiyası prinsiplərinə zidd olan, etimadı və əməkdaşlıq yaradılması səylərini sarsıdan qətnamələr qəbul edilməsi praktikasından əl çəkməyi tələb edir".

### Lüksemburq vassal bir quruluşdur

Fakt ondan ibarətdir ki, Lüksemburq balaca bir "cırtdan" dövlət olduğundan müstəqil mövqe sərgiləmək, azad addımlar atmaq gücünə malik deyil. Bu balaca quruluşu Fransa idarə edir. Ölkənin rəsmi dilinin olmaması və əhalinin əsasən fransız və alman dillərində danışması, iqtisadi, sosial siyasətin Fransa hökuməti tərəfindən müəyyənləşməsi Lüksemburqun 1684-cü ildən bu günə qədər Fransanın bir əyaləti olaraq qaldığını göstərir. Tarixi faktlara istinadən qeyd etmək olar ki, Lüksemburq 1684-cü ildə Fransa kralı XVI Luis tərəfindən işğal edilib. Belçika və Hollandiya bu ərazilərə sahib olmaq üçün cəhdlər göstərsələr də, istəkləri nəticəsiz qalıb. 1815-ci ilə qədər Fransanın bir əyaləti olaraq qalan Lüksemburq nəhayət 1830-cu il də Belçikanın bir bölgəsinə çevrilmişdir. Birinci və ikinci dünya müharibələrində Almaniya tərəfindən işğal edilən Lüksemburq uzun illər boyunduruq altında inildəmişdir. 1945-ci ildə Almaniyanın çöküşündən istifadə edən Belçika və Hollandiya Lüksemburqun torpaqlarını öz aralarında bölmüşlər. Nəhayət, yenidən meydanda görünən Fransa Lüksemburqu Belçika və Hollandiyanın təsirindən xilas edərək, öz vassalına çevirmişdir. Hətta Luksemburq yarım müstəqillikdə vermişdir. Nəticədə, Lüksemburq 1949 da NATO, 1957-ci ildə Avropa İqtisadi Birliyinə üzv olmuşdur. Bu gün də Luksemburq dövlət olduğunu göstərməyə çalışsa da, reallıqda Fransanın bir parçası olaraq tanınır. Ölkə idarəetmə formasının orta əsrlər dövründə olduğu kimi Qraflıq sistemi ilə idarə olunması rəsmi Lüksemburqun azad olmayan dövlətlərdən olduğunu göstərir. Lüksemburq həm də monarxiya formasında idarə olunur və ölkə siyasətinin barbarlar dövründə olduğu kimi hersoqlar müəyyənləşdirirlər. Parlament qərarlar verir, qanunlar qəbul etsə də, əsas qərarlar hesoqlar tərəfindən verilir. Hersoqlar isə Fransa hakimiyyətinin, yəni Makronun göstərişi ilə fəaliyyət göstərirlər. Ona görə də, barbarların dövründən qalma siyasəti davam etdirən Lüksemburqun dünyəvi dövlət quruluşuna uyğun qərarlar qəbul etməsi, açıqlamalar verməsi mümkünsüzdür. Digər tərəfdən qeyd etdiyimiz kimi, Lüksemburq Fransanın bir parçası olaraq qalmaqdadır. Belə bir toplumun Azərbaycan haqqında irəli sürdüyü qərəzli qərarların müəllifi də heç şübhəsiz ki, Fransa dövləti, onun prezidenti Makrondur. Çünki hər iki dövlətin Azərbaycana qarşı qərəzli siyasəti eyni tezislərə əsaslanır və açıqlamaları bir-birinə oxşardır. "Cırt"dan bir quruluşun Azərbaycan kimi nəhəng, güclü bir dövlətə qarşı hansısa iddialar irəli sürmək gücünə və imkanına malik ola bilməz. Yəni Azərbaycana qarşı qərəz Lüksemburqun həddi deyil. Onu Fransa kimi irticaçı dövlət məcbur edir. Bu yerdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransda Belçikanın Avropa Siyasəti Mərkəzindən Amanda Polun sualını cavablandırarkən dediyi "Bizim azad etdiyimiz ərazilər dörd Lüksemburq ərazisinə bərabərdir" fikri yada düşür. Fateh Sərkərdə, Prezident İlham Əliyev bildirdi ki, müharibədən sonra Avropa İttifaqına üzv cəmi bir ölkə var ki, onun xarici işlər naziri özünə Azərbaycan barədə çox uyğun olmayan fikirlər söyləməyi rəva görüb:

"Biz demək olar ki, səssiz qaldıq. Yalnız bizim Xarici İşlər Nazirliyimiz cavab verdi, çünki biz bu ölkədən çox "qorxurduq". Mən sizə də bizə amansızcasına hücum edən bu ölkədən çox "qorxmağı" məsləhət görürəm. Mən bütün rəsmi şəxslərimizə dedim ki, səssiz qalsınlar, əks halda onlar gəlib bizi "işğal edərlər". Bilirsiniz bu hansı ölkədir? Bu ölkə Lüksemburq adlanır. Sadəcə, müqayisə üçün sizə deyə bilərəm ki, bizim azad etdiyimiz ərazilər dörd Lüksemburq ərazisinə bərabərdir. Ona görə də, Lüksemburqun xarici işlər naziri yaxşı olardı öz qayğısına qalsın və bu eyhamlara son qoysun. Lakin bundan başqa, müharibədən sonra mənfi heç nə baş verməyib. Biz ümid edirik ki, Avropa İttifaqı bizim böyük tərəfdaşımız olmağa davam edəcək. Xüsusilə əvvəl qeyd etdiyim kimi, Avropa İttifaqının 9 üzvü ilə bizim strateji tərəfdaşlıq üzrə əməkdaşlıq formatımız var".

### Avropada çirkli pulların yuyulmasına görə Lüksemburq öndə gedən ölkədir

Lüksemburq "cırt"dan ölkə olsa da, çirkli pulların yuyulmasına görə Avropa öndə gedən ölkələrdəndir. Nəzarətsiz ölkə olduğundan cinayətkarlıqda geniş yayılıb, narkotacirlər Avropaya geniş çeşidli narkotiki Lüksemburqun hakim zümrəsi ilə razılaşdırmaqla Avropa və Asiya ölkələrinə daşınmasını həyat keçirlər. Lüksemburqa turist olaraq səyahət edən insanlar hər addımda cinayətkarların hücumuna məruz qala bilir. Ötən ilin statistikasına görə. Ölkəyə səyahət etmiş 865 min nəfərdən 34 min 456 nəfəri yerli cinayətkarların hücumu ilə üzləşib. Ona görə də, Lüksemburq turist səyahəti və iş fəaliyyəti üçün çox təhlükəli ərazilər hesab olunur. Haqlı olaraq da Azərbaycan Xarici İşlər Nazirliyi vətəndaşlarımız Lüksemburqa gedərkən ehtiyatlı olmağı tövsiyə edir. Nazirliyin saytında yerləşdirilən məlumatda qeyd olunur ki, Lüksemburqda terror hadisələri nadir hal hesab olunur. Lakin digər Şenqen ölkələri kimi Lüksemburqun açıq sərhədləri terroristlərin ölkəyə nəzərə çarpmadan daxil olmalarına imkan verir: "Lüksemburqda nümayişlərin keçirilməsi üçün əvvəlcədən polisin razılığı tələb olunur və polis nümayiş iştirakçılarının və yoldan keçənlərin təhlükəsizliyini təmin edir. Bütün bunlara baxmayaraq, belə nümayişlər zamanı vəziyyət ictimai asayişi təhlükə törədə biləcək istiqamətdə inkişaf edə bilər. Buna görə nümayişlərin keçirildiyi ərazilərdən uzaq olmanız tövsiyə olunur. Lüksemburqda üstünlük təşkil edən cinayət növləri pul kisələrinin/çantaların şəxsin əlindən qoparmaqla qiymətli əşyaların oğurlanması və ya adam olmayan evlərin qarət edilməsidir. Səyahətçilər, cibgirlərin problem halına gəldiyi ictimai yerlərdə, aeroport və qatar terminallarında ehtiyatlı olmaları gərəkdir. Lüksemburqun gündüz vaxtı təhükəsiz olan çoxlu ictimai parkları vardır. Həmin parkların bəzilərində narkotiklərin küçə satışı halları artmışdır. Qaranlıq düşdükdən sonra bu parkların dolaşmaq təhlükəsizlik baxımında riskli olduğuna görə həmin parklarda uzaq olmaq tövsiyə olunur".

Bir sözlə faktlar təsdiq edir ki, Lüksemburq kağız üzərində dövlət (hətta müstəqil ölkə- İ.Ə.) kimi təqdim edilməsinə baxmayaraq, əslində, Fransanın bir əyaləti olaraq qalır. Başıpozuq hersoqların müstəqil olmaması ölkə parlamentinin anormal qərarlar qəbul etməsinə gətirib çıxarır. Lüksemburq Deputatlar Palatasının Azərbaycan haqqında qəbul etdiyi separatçı qətnamədə yiyəsiz parlament üzvlərinin qeyri-ciddi qərarı olduğu şübhəsizdir. Lakin heç bir kağız parçasından başqa bir şeyə yaramayan qətnamələr, qərar və açıqlamalar Azərbaycanı öz yolundan - dünyada sülhə, əmin-amanlığa töhfələr vermək yolundan döndərə bilməz. Biz varıq və var olduqca Azərbaycanın uğurları bol olacaq.

***İLHAM ƏLİYEV***

# Foto həvəsi, narkotikə meyillik, yoxsa təhlükəli xəstəlik?




Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin nümayəndəsi Nərmin Azadovanın SİA-ya verdiyi müsahibəsini təqdim edirik:

***- Qəlyan bir növ dəb halına keçib? Yoxsa insanların bir foto xatirinə bir şəkil çəkdirim özümü göstərim prinsipidir. Bu bir növ xəstəlik yaradır?***

- Mən ilk öncə tütünlə bağlı açıqlama vermək istərdim. Bəşəriyyətin ən ciddi problemlerindən olan xalqın, millətin təhlükə mənbəyinə çevrilən tütün dilindən, dinindən, irqindən və cinsindən asılı olmayaraq hər kəs üçün eyni təhlükə mənbəyidir. Tütün elə bir bəladır ki, ondan istifadə edən insanlar təkcə öz sağlamlığını deyil, ətrafında olan insanların da sağlamlığını təhlükə altına atmış olur. Siqaretdən istifadə zamanı onun tərkibində olan toksik maddələrin 25 faizi siqaret çəkənin ağciyərinə daxil olur, digər 75 faizi isə atmosferi zəhərləyir və bu zəhərli hava ilə nəfəs alan hər kəs tütünün zərərli təsirinə məruz qalmış olur. Bu da ikincili tütünçəkmə yəni, passiv tütünçəkmə hesab olunur.

***- Bugün dünyada 8 milyon insan tütünün səbəb olduğu xəstəlikdən dünyasını dəyişir ki, bunun bir milyonu passiv tütün çəkənlərdir. Bununla yanaşı üçüncülü tütünçəkmə də vardır ki, hansı ki qapalı məkanda siqaretdən istifadə edilibsə, ondan ayrılan toksit maddələr divana, divara, döşəməyə hopur və otağa daxil olan şəxs yenidən siqaretin zərərli təsirinə məruz qalmış olur. Bu bir daha siqaretin hansı zərərli təsirə malik olduğunun göstəricisidir.***

Bununla yanaşı, siqaretin tərkibində 7 minə yaxın kimyəvi maddə vardır ki, bunlardan 70-i konserogen maddələrdir. Bu da insanlarda dövrün bəlası olan xərçəng xəstəliyinin yaranmasının əsas səbəbidir. Təsadüfi deyil ki, bugün ağciyər xərçəngi ilə bağlı ölümlərin 90 faizi siqaretin payına düşür. Biz siqaret dedikdə burada təbii ki elektron siqaretlər, qəlyanları da nəzərdə tuturuq. Belə ki 2017-ci ildə cənab Prezident tərəfindən tütünün istifadəsinin məhdudlaşdırılması haqqında qanuna əsasən bütün növ qəlyan və elektron siqaretlər siqaret hesab olunur. Onların istifadəsi və zərərlərindən siqaretə olduğu qədər nəzarət olunmalıdır.

***- Bir saat qəlyan çəkmək 100 ədəd siqaret çəkməyə bərabər hesab olunur. Siz necə düşünürsünüz?***

- Biz əsasən sübutlara əsaslanan məlumatlar verməyi özümüzə borc bilirik. Çünki biz dövlət qurumuyuq və bu barədə araşdırmalara əsaslanan məlumatlar veririk. Müəyyən araşdırmalara əsaslanaraq deyə bilərik ki, bəli, bir saat qəlyandan istifadə 100 ədəd siqaret çəkməyə bərabərdir və bundan əlavə qəlyanın tərkibində olan nikotin güclü şəkildə asılılıq yaradır. Ümumiyyətlə aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, mütəmadi şəkildə qəlyandan istifadə edən insanların qanında yüksək dərəcədə katolin maddəsi aşkar olunur. Katolin maddəsi nikotinin törəməsidir. Elə bu da insanlarda asılılıq yaradır və qəlyanda olan həmin maddələr müəyyən müddət sonra siqarətə meyli artırır və bugün qəlyandan istifadə edən gənclərimizin gələcəkdə siqaretə müraciət etməkləri yüksək şəkildə gözlənilir.

***- Bugün əsas məsələlərdən biri də azyaşlı uşaqların elektron siqaretlərə, qəlyanlara alüdə olmasıdır. Sizcə onlarda bu məsələlərə maraq niyə artıb? Bir növ kimdənsə örnək götürürlər, yoxsa bəhsə- bəhslik prinsipi ortaya çıxır? Hətta məktəbli uşaqların belə əllərində bugün biz şəhərə çıxsaq elektron siqaretlər var. Bu nədən irəli gəlir?***

- Bəli, təəssüflər olsun ki, sırf marketinq siyasətinə xidmət edən elektron siqaretlər ictimaiyyətə təqdim olmamışdan qabaq insanlar arasında dırnaqarası belə bir reklam yayıldı ki, elektron siqaretlər siqaret deyil, hətta siqaretdən uzaq durmaq üçün bir vasitədir. Lakin araşdırmalar bir daha sübut etdi ki, bu qətiyyən belə deyil. Elektron siqaretlər də siqaret hesab olunur və ən azı siqaret qədər zərərlidir və tərkibində kifayət qədər nikotin var. Onun tərkibində olan xüsusi dadlandırıcı maddələr həyata keçirir və lazımi danışıqlar aparılır. Biz hesab edirik ki yaxında bunun da müsbət geri dönüşlərini əldə edəcəyik.

***- Məkanlarda hər hansı bir qadın qəlyan çəkdikdə ona "pis gözlə" baxırlar. Hətta şəklini də çəkib dost-tanışa yollayanlar var. Bunun səbəbi nədən qaynaqlanır?***

- Bu etik cəhətdən düzgün deyil. Çünki hər kəsin şəxsi işidir və hər kəs ona verilən həyatı istədiyi şəkildə yaşaya bilər. Bu xüsusilə Azərbaycan xanımı üçün heç diqqətçəkici görünmür. Mən bir məkanda əyləşsəm və yan masada bir qadın siqaret, yaxud qəlyan çəksə bu mənim diqqətimi heç cəlb etməz. Əksinə, ona yazığım gələr. Çünki o sabahın anasıdır. Sabah onun dünyaya gətirəcəyi övlad da xəstə olacaq. Mən anadan çox onun övladını düşünürəm. Amma biz heçkimi qınaya bilmərik. Mən bir mütəxəssis olaraq bunların zərərləri barədə həmin qadına məlumat verə bilərəm.

Son dövrlər qəlyan kimi zərərli vərdişlər bağ evlərində çox təşkil olunur. Üstəlik bütün yaxınlar da burada bir yerə yığışır. Bununla fəxr edirlər ki, "Gəl bizə, bizdə qəşəng qəlyan var". Çox təəssüflər olsun ki, bu da maarifsizliyin bir nəticəsidir.

***- Elektron siqaretlərin yağının xərçəng yaratdığı söylənilir. Bu nə dərəcədə doğrudur?***

- Elmi araşdırmalara əsaslanaraq bildirirəm ki, istər qəlyan, istər siqaret, istərsə də elektron siqaretlərin tərkibində olan maddələr insanlarda xərçəng xəstəliyini yarada bilən maddələrdir. Tütünə nisbətən bu elektron siqaret və qəlyanda az ola bilər. Amma bu o demək deyil ki, onlar zərərsizdir. Bunlardan istifadə insanda bir aylıq immuniteti məhv edir. İmmunitetin zəifləməsi də insanın bir çox xəstəliklərə yoluxmasına şərait yaradır.

***- Azyaşlı qızların da qəlyandan istifadə hallarına rast gəlinir. Xanımlara yaraşmayan hərəkətlər var ki, bəzi xanımlar belə edir. Bu nədən irəli gəlir? Bu Avropa mədəniyyətidirmi? Yoxsa biz özümüz bu amilləri təbliğ edirik?***

- Bilirsiniz, Azərbaycan bugün dünyaya inteqrasiya edir. Bu inteqrasiyanın müsbət nəticələri ilə yanaşı təbii ki mənfi nəticələri də var. Məhz elə bugün xanımlarımızın siqaretdən, qəlyandan, elektron siqaretdən istifadə etməsi bu inteqrasiyanın mənfi tərəfidir. Yəni onlar özünü müasir göstərmək, avropalaşmaq niyyəti ilə bunu edir. Lakin onlar bir anadır, bir xanımdır. Bizim nə milli mentalitetə, nə xanımlığımıza uyğun gəlmir, qadınların zərərli vərdişlərdən istifadə etməyi. Bu baxımdan deyirəm. Amma zərərli olmaq baxımından fərqi yoxdur kişiyə, qadına, azyaşlıya və yaxud daha çox yaşlıya zərər eyni dərəcədədir. Təbii ki azyaşlıların orqanizmləri tam formalaşmamış olur, onların bədəni xəstəliyə daha meylli olur. Azyaşlı uşaqlara, körpələrə bu daha zərərdir. Ona görə də siqareti qadın, kişi, uşaq, böyük fərq etmir hər kəs üçün eyni zərərə malikdir. Bunun üçün dövlətimiz lazımi tədbirlər həyata keçirir ki, gənclərimiz bu zərərli vərdişlərdən uzaq dursun. Belə ki Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İdman Mərkəzi tərəfindən 2021-ci ildən tütünlə mübarizə məqsədilə qaynar xətt yaradılmışdır. 050 -870 -45 nömrəsinə istənilən hər kəs müraciət edib psixoloji dəstək və tövsiyə ala bilərlər. Bu qaynar xətt mütəmadi olaraq fəaliyyət göstərir. Qaynar xətdən nəinki siqaretdən istifadə edənlər, onların yaxınları da müraciət edib psixoloji dəstək və tövsiyə ala bilərlər.

***Ayşən Vəli***




## "COP29 Azərbaycanın beynəlxalq müstəvidə etimad ediləcək dövlət olduğunu göstərdi"

"COP29-un Azərbaycanda keçirilməsi ilk növbədə Azərbaycanın beynəlxalq müstəvidə etimad ediləcək dövlət olduğunu göstərdi". Bunu SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. O bildirib ki, Azərbaycana 80-dən çox dövlət və hökumət başçıları təşrif buyurdu: "Minlərlə qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti fəalları, ekoloqlar bu tədbirdə çıxış etdilər. Azərbaycan bu tədbiri yüksək səviyyədə təmin etməklə bütün çıxışçılar üçün bir platforma oldu. Həmçinin Azərbaycan beynəlxalq dünyanın diqqətini cəlb etdi. Həm də dünyanı regionda deyil, okeanda və dənizaşırı ada ölkələrində insan hüquqlarının pozulması, müxtəlif ölkələrin kiçik ada dövlətlərinə qarşı həyata keçirdiyi koloni siyasətinə həmin ada dövlətlərini də dəvət etməklə bir daha onların problemlərini, ekoloji problemlərini dünyanın gündəminə çıxardı. Bu günə kimi belə proses olmamışdı.



Azərbaycanın COP29 tədbirində itirdiyi olmadı, daha çox qazandı. Bütün dünya xalqları, bütün əlaqəli ölkələrin Azərbaycana etimadı formalaşdı. Bəzi ölkələr qərəzli mövqe tutdular. Amma onlar da Azərbaycanın haqlı olduğunu və beynəlxalq təşkilatlara ev sahibliyi etməklə yüksək səviyyədə həyata keçirdiyini də qəbul etdilər. Azərbaycan bir daha dünyada ədalətli və dünyanın etimad etməli olduğu ölkə olduğunu göstərdi. Düşünürəm ki, Azərbaycanın qazancı həm də o oldu ki, müxtəlif koloniya və imperiya altında olan xalqların Azərbaycan dövləti və xalqına qarşı etimadı daha da artdı. Bu, Azərbaycan dövlətinin uğurlu siyasətinin bariz nümunəsidir. Cənab Prezident İlham Əliyevin xarici beynəlxalq siyasətinin nəticəsidir.

Onun sözlərinə görə, bu tədbiri boykot edənlər də iflasa uğradılar, tədbiri boykot etmədilər: "Maliyyə məsələsi ilə bağlı müəyyən qərar əldə olunmamasına gəldikdə isə bu, Azərbaycanın problemi deyildi. Bu problem böyük, aparıcı dövlətlərin problemi idi. Çünki Amerika Birləşmiş Ştatları başda olmaqla bir çox ölkələr iqlim problemlərinə ikili standartlarla yanaşırlar. Maliyyə ayırmırlar. Buna baxmayaraq tədbir bütün istiqamətlər üzrə yüksək səviyyədə alındı".

***Söylü Ağazadə***

# Yeni kartof sortu yetişdirilir?

***Amerikanın sevimli tərəvəzi olan kartof demək olar ki, yağsızdır və yaxşı kalium, dəmir və C vitamini mənbəyidir. O, hər birində 3 qram protein və lif, aşağı natrium və xolesterin ehtiva etmir. Amerika Kənd Təsərrüfatı Tədqiqat Xidmətinin alimləri rəngarəng yeni sortlar yetişdirib buraxıblar. Bəzilərində "antosiyaninlər" adlanan faydalı qırmızıdan bənövşəyi rəngə qədər olan piqmentlər nisbətən yüksəkdir, digərlərində isə sarı-piqmentli karotenoidlər yüksəkdir. Bəs, elm adamlarından kartof sortu ilə bağlı maraqlı kəşf necədir? Yeni kartof sortu necə olacaq?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

ARS tədqiqatçıları qırmızı və bənövşəyi ətli və qabığı olan üç yeni kartof sortunu hazırlayıblar ki, onlar artıq istehlakçılara təqdim olunur. Tezliklə yeni sortları əldə edə bilsəniz, bayram süfrənizi bəzəyən rəngli kartoflarınız olacaq.



## Rəngdə nələr var?

Bütün kartofların tərkibində çoxlu qida maddələri və sağlamlığa kömək edən digər birləşmələr var. Rəngli ətli kartofda antosiyaninlər və karotenoidlər var. Miqdarı və növü kartofun müxtəlifliyindən asılıdır. Merilend ştatının Beltsville şəhərində ARS tədqiqatçılarının yetişdirmə səyləri sarı ətli idxal sortundan üç dəfəyə qədər daha çox karotenoid ehtiva edən sarı piqmentli kartofun buraxılmasına səbəb oldu.

Vaşinqton ştatının Prosser şəhərində ARS ilə işləyən bitki genetiki Çarlz Braunun fikrincə, ABŞ-da ən çox yeyilən tərəvəz kimi fitonutrientlə zəngin kartof sağlamlığa güclü təsir göstərə bilər. Bir araşdırmada Braun və onun həmkarları sarı və bənövşəyi piqmentli kartofda və ağ kartofda fitokimyəvi maddələrin konsentrasiyalarını təhlil edib müqayisə ediblər. Komanda, sarı kartofun ağ kartofdan 45 dəfə, bənövşəyi kartofun isə sarı kartofdan 20 qat daha çox antosiyanin konsentrasiyasına malik olduğunu bildirdi. Ağ kartofda aşkar edilə bilən miqdarda antosiyanin tapılmadı.

Eyni araşdırma zamanı komanda həmçinin piqmentli kartofun sensor qiymətləndirmələrini ağ kartofunki ilə müqayisə etdi. Sarı, bənövşəyi və ağ kartof istehlakçı paneli tərəfindən sıralandıqda, ləzzət və ya ümumi qəbulda əhəmiyyətli fərqlər müşahidə olunmadı.

Braun ARS-in Prosserdəki Tərəvəz və Yem Bitkiləri İstehsalı Tədqiqat Bölməsində üç qırmızı və bənövşəyi piqmentli kartofu diqqətlə yetişdirildi. Braun "Onları istehlakçılara çatdırmaq onilliklər çəkdi" dedi. İstehlak üçün mövcud olan rəngli ətli üç böyük dadlı kartof çeşidi TerraRosa, AmaRosa və Purple Fiesta kimi tanınır. Onlar bişirmə, qovurma, mikrodalğada, soba, buxarda bişirmə və əzmə kimi müxtəlif hazırlıq üsullarında yaxşı çıxış edirlər. Braun Vaşinqton, Aydaho və Oreqondakı universitet tədqiqatçılarının daxil olduğu Şimal-Qərb (Tri Ştat) Kartof Sortunun İnkişafı Proqramı ilə töhfə verən tərəfdaş kimi sortların hazırlanması və qiymətləndirilməsi üzərində işləmişdir.

## Fərqli coğrafiyalardan fərqli kartof sortları

Ölkəmizdə geniş şəkildə becərilən və istehlak edilən kartofun becərilməsi üçün əlverişli torpaq sahəsi çox olduğuna görə çeşidləri çoxdur. Böyüdükləri yerə və toxum növlərinə görə dəyişən kartof sortları da bişirmə üstünlüklərinə görə adlanır. Mətbəxdə ləzzətli qoxuların sirrlərindən biri olan kartof, demək olar ki, hər formada doyurucu bir tərəvəzdir. Yüksək doyurucu xüsusiyyətlərə malik kartof həm də yüksək nişasta və karbohidrat dəyərləri ilə diqqət çəkir. Hər formada istehlak edilən kartof saysız-hesabsız çeşidləri ilə də kənd təsərrüfatında öz yerini tutur.



Bu yazıda sizə kartof sortları və onların xüsusiyyətləri haqqında bir çox məlumat təqdim edəcəyik.

**Kartof növləri:** 7 müxtəlif kartof və onların maraqlı xüsusiyyətləri

**1) Qırmızı şirin kartof**

Peru kartof sortları ilə məşhur bir ölkədir. Bu kartof növlərindən biri də şirin kartof kimi tanınan qırmızı kartofdur.

- Qırmızı kartofun qabığı sarı kartofdan bir qədər qalındır.
- Rənginin narıncı və qırmızı olması yetişdiyi torpaqla izah edilir.
- Tərkibində geniş istifadə olunan sarı kartof kimi nişasta var.
- Digər kartoflardan fərqi: onun iqtisadi dəyəri bir qədər yüksəkdir.
- Onun dadı bir az şirindir.
- Çox aşağı glisemik indeksi olan qırmızı şirin kartof, istənilən şəkildə bişirmək üçün uygundur.



**2) Bənövşəyi kartof**

- Şirin kartofun uzaq qohumu sayılan bənövşəyi kartof sağlamlıq faydaları sayəsində müalicəvi təsiri olan bir kartof növüdür.
- Filippin və İndoneziya sərhədində yetişdirilən bənövşəyi kartofun bir az şirin dadı var. Qabıq çox qalın və çox nazik deyil. Çox yaxşı soyula bilən bir qalınlığa malikdir.
- Bənövşəyi kartofun mümkün olub-olmaması ilə maraqlananlar üçün bu kartofun rəng sirrini açıqlayaq. Böyüdüyü torpaqda olan minerallar sayəsində bənövşəyi rəngini alan bənövşəyi kartof son dərəcə təbii qidadır.
- Tərəvəz növləri arasında çox güclü antioksidant maddələrə malik olan bənövşəyi kartof orqanizmi zərərli maddələrdən təmizləməkdə də çox güclüdür.
- Bənövşəyi kartof təkcə kartof kimi deyil, həm də ətirli və rəngləndirici qida kimi istifadə olunur.

**3) Niğde kartofu**

- Nahita kartof toxumlarından istehsal edilən yerli kartof Niğde bölgəsində geniş şəkildə istehsal olunan bir kartof növüdür.
- Türkiyədən dünya ölkələrinə yayılmağı hədəfləyən Nahita kartofu istehsal olunduqda yüksək məhsul verən tərəvəzdir.
- Qızartmaq və bişirmək üçün uyğun olan Nahita kartofunu Türkiyənin bir çox nöqtəsindən əldə edə bilərsiniz.
- Yerli və milli kartof növü olduğundan onun iqtisadi dəyəri də kifayət qədər aşağıdır.
- Niğde kartofu yazda əkilən və aşağı temperaturda böyüyən kartofdur.

**4) Sarı Bamba Kartofu**

- Sarı bamba kartofu oval bir görünüşə malikdir.
- Onun qabığının rəngi sarı çalarlara malikdir. Bəzən sarı, bəzən isə çox açıq sarı olan qabıqla böyüyür.
- Qızartma və bişirmə üçün ləzzətli kartof növü olan bamba kartofu da qida dəyəri yüksək olan növlərdəndir.
- Əkiləndə çox gec yetişən bamba kartofu ölkəmizdə geniş marketinq sahəsinə malik kartof çeşididir.

**5) Ağ Fianna Kartof**

Müxtəlif növ kartoflar arasında ağ kartof da var.

- Çips hazırlamaq üçün ümumiyyətlə üstünlük verilən ağ fianna kartofu Hollandiya sərhədlərində geniş şəkildə istehsal olunur.
- İçəridə və çöldə kifayət qədər yüngül olan ağ kartofun dadı çox yumşaqdır.
- Kartof qızartması axtaranlar fianna kartofunu dadlı yeməklərdə yeyə bilərlər.

**6) Durabo**

- Restoranlarda və fast food məkanlarındq tez-tez istehlak edilən kartof qızartması ümumiyyətlə Durabo tipli kartofdan hazırlanır.
- Durabo kartofunun daxili teksturası açıq sarı rəngə malikdir və qabığı olduqca nazikdir.
- Qabıqları ilə də istehlak edə biləcəyiniz Durabo kartofunu qaynadığınız zaman qabığını rahatlıqla soya bilərsiniz.

**7) Xanım Rosetta**

- Xanım Rosetta kartofunu görənlər heyrətlənir. Xarici qırmızı, içi sarı olan bu kartof sürprizlərlə doludur. Xanım Rosetta kartofunu kəsdiyiniz zaman sizi qırmızı və sarı rəng harmoniyası qarşılayacaq.
- Qızartmaq və çips hazırlamaq üçün istifadə edilən bu kartof çeşidi orta ölçülüdür.

***Ayşən***

ARAŞDIRMA

# Su müharibəsi:

## qlobal su böhranı ilə mübarizədə real vəziyyət

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Sağlam Cəmiyyət Hərəkatının rəhbəri Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*




***Su bütün insanlar üçün mütləq ehtiyacdır. Bizim mövcudluğumuz suyun mövcudluğu və keyfiyyəti ilə dərindən bağlıdır. İnsanların yerinə yetirdiyi demək olar ki, hər bir funksiyada sudan istifadə edilir. Hər bir məhsulun və ya qidanın istehsalında həmişə bol su tələb olunur. Lakin son dövrlərdə dünyada həyatın mənşəyi və təminatçısı olan su ilə bağlı ciddi problemlər yaranıb. Söhbət əlbəttə ki, şirin sudan gedir.***



Figure 1: Percentage of population experiencing severe water scarcity at least one month of a year.
Source: Water Footprint Network
Data from M.M. Mekonnen & A.Y. Hoekstra, University of Twente

### Dünya içməli su böhranı dövrünə qədəm qoyur

Planetdəki bütün sular okeanlarda, dənizlərdə, göllərdə, çaylarda və hətta qar və yağışda toplanır. Yerin dərinliklərində də böyük su hövzələri var. Planetimizin 70 faizi su ilə örtülüdür, bu cəhətdən əslində dünyamızın adı Su planetidir. Lakin bu suyun 98 faizə yaxını duzlu sudur. Dünyadakı suyun yalnız 2,5%-i şirin sudur, onun isə yalnız 0,3%-i istifadə oluna biləndir.

İçməli suyun yalnız 0,4 faizi səthdədir, məsələn, şirin su gölləri, çaylar və atmosferdəki rütubətdir (səthdəki şirin suyun çox hissəsi buzlaqlardadır).

Sürətlə artan əhalini, getdikcə böyüyən sənayeni və kənd təsərrüfatını nəzərə alsaq, bu məhdud su təchizatını idarə etmək çətin və mürəkkəb məsələdir. Təsəvvür edin ki, 1 insanın yemək və içmək üçün sərf etdiyi gündəlik su norması 5 litr təşkil edir. Lakin insanın yaşaması üçün sərf olunan adambaşına su həcmi 5 tondur. Buraya müxtəlif məhsulların, ərzağın və sairin istehsalı, avtomobillərin, geyimlərin və sair əşyaların yuyulması, həmçinin digər məqsədlərlə sərf olunan su daxildir. İlə vursaq adambaşına 2 min tona yaxın su sərf olunur. Bunu isə 8 milyarda vursaq dəhşətli bir rəqəm alınır- 16 trilyon ton.

Dünyada 4 milyarddan çox insan (bəşəriyyətin yarısı) ildə 1 ay ciddi su qıtlığı yaşayır. Bu gün təxminən 2 milyard insan suyun məhdud olduğu yerlərdə yaşayır. Daha 2 milyard milyard insan yeraltı suların bol olduğu regionlarda yaşayır, lakin suya çatmaq üçün infrastruktura malik deyil. Birləşmiş Millətlər Təşkilatı kəskin proqnoz verir: 2030-ci ilə qədər daha 1 milyard insan mütləq su qıtlığı olan ölkələrdə və ya bölgələrdə yaşayacaq və dünya əhalisinin üçdə ikisi sudan əziyyət çəkəcək.

2050-ci ilə qədər suya olan tələbatın 2 qat artacağı gözlənilir. 2050-ci ilə qədər Yaxın Şərq və Şimali Afrikada şirin su mövcudluğu 50 faiz azalacaq. Quraqlığın tez-tez və şiddətli baş verdiyi. Təmiz və təhlükəsiz suya çıxışı olmayan dünya əhalisinin 37 faizi Afrikada Sahara zonasında yaşayır. Göründüyü kimi su planetinin ciddi su problem var.

### Dünyanın yeraltı su ehtiyatları tükənir

Bu gün qrunt sularının üçdə ikisindən çoxu kənd təsərrüfatının suvarılmasına sərf olunur, qalanı isə şəhərlərin içməli suyu olaraq. Afrika, Avrasiya və Amerikada dünyanın ən böyük yeraltı su ehtiyatları hazırda tükənmək ərəfəsindədir. Onların bir çoxu geri dönməz şəkildə yox olur. Bu gün təxminən iki milyard insan bu təhlükə altında olan ərazidə yaşayır.

Dünyanın bəzi yerlərində qrunt sularının idarə olunmadan vurulması nəticəsində müəyyən ərazilərdə torpağın hər il 7-10 sm çökməsinə səbəb olur. Bu, dəmir yollarının, yolların, infrastrukturun və binaların təməllərini pozur. Məsələn, Çin suyun idarə edilməsi və təchizatı məsələsində dünyanın ən riskli ölkələrindən biridir. 20 milyon insanın yaşadığı paytaxt Pekin, nəhəng Şimali Çin Düzənliyi su hövzəsinə malik olmasına baxmayaraq, dünyada ən çox su sıxıntısı olan 5-ci şəhərdir. Meksikanın paytaxtı Mexiko şəhəri kimi bir çox başqa şəhərlər hər gün batmağa davam edir.

Uzun illər əvvələ qədər dünyada hələ də çoxlu sulu təbəqələr var idi. Sulu təbəqələr quraqlıq və həddindən artıq istilik kimi su təchizatı ehtiyaclarının artdığı dövrlərdə qitələr və ölkələr üçün potensial ehtiyat su rolunu oynayır. Bununla belə, bizim təcili su təchizatı ehtiyaclarımızı ödəyəcək bu təbii çənlərin üçdə ikisi ölkələr və insanlar tərəfindən su ilə bağlı həyata keçirilən gərgin fəaliyyətlər nəticəsində artıq tükənmişdir.

Birləşmiş Millətlər Təşkilatının özü 2030-cu ilə qədər suya çıxışda ciddi qlobal qıtlığın olacağı ilə bağlı proqnozunu açıqlayıb.

Neft ehtiyatları haqqında sudan daha çox şey məlumdur. Sulu təbəqələrdə nə qədər suyun qaldığını hesablamaq çətindir. Kanadanın Viktoriya Universitetinin alimləri 2015-ci ildə belə qənaətə gəliblər ki, Yer kürəsinin üst 2 kilometrliyində olan yeraltı suların 6%-dən az hissəsi orta insan həyatı boyu bərpa oluna bilər. Lakin digər hidroloqlar xəbərdarlıq edirlər ki, ölçmələr yanlış ola bilər. Həqiqətən də vacib olan suyun təbəqələr boyunca necə paylanmasıdır. Yeraltı hövzədə suyun səviyyəsi 15 metr və ya daha az olduqda suyun səthə vurulması iqtisadi cəhətdən praktiki deyil. Həmçinin, çıxarılsa belə, suyun çox hissəsi acı və ya həddən çox mineral ehtiva edər.

### Yer üzündə su niyə bu qədər azalmağa başladı?

Bu, hər bir insanın ağlında olan böyük sualdır. Yaşamaq üçün yeganə zəmanətimiz olan suyun səviyyəsinin kritik dərəcədə aşağı düşdüyü bu nöqtəyə necə gəldik? Qısa cavab- sənayeləşmənin və istehsalın sürətli artımı sayəsində.

Bu qlobal problemə səbəb olan bir çox amil var;

-Qlobal istiləşmə və iqlim dəyişikliklərinin təsiri

-Su ehtiyatlarının sənaye, kənd təsərrüfatı, istehsal, biznes, şəxsi və s. hər hansı məqsəd üçün məsuliyyətsiz istifadəsi





-Qrunt sularının vurulmasına qeyri-adekvat nəzarət.

-Müvafiq su sistemlərinə standartlara uyğun olmayan texniki qulluq nəticəsində şəhərlərdə və digər ərazilərdə ciddi su itkiləri.

-Əhalinin sürətli artımı və qida istehsalı üçün lazım olan su təchizatının artması.

Yer üzündə mövcud suyun azalmasına səbəb olan iqlim dəyişikliyi və ümumi insan fəaliyyəti artmağa davam etdikcə, mövcud suyun miqdarının azalması qaçılmazdır. Yerin iqliminə ciddi ziyan vuran əsas faktor sənaye, mədənçilik və nəqliyyatdır.

### Su müharibələri baş verəcəkmi?

Su müharibəsi ona görə baş verə bilər ki, suya olan tələbat təklifi çox üstələyəcək. Mənbə ölkələri tnassərhəd çayların suyundan daha çox istifadə edəcək və digərləri ağır vəziyyətə düşəcək. Baxmayaraq ki transsərhəd çayların suyundan ümumi istifadə normaları haqda beynəlxalq konvensiya var. Artıq Şərqi Afrikada şiddətli quraqlıq sərhəd ölkələr arasında arasında ölümcül qarşıdurmalara səbəb olub. Dəclə və Fəratın suyundan istifadə ilə bağlı Türkiyə, Suriya, İraq arasında gərginlik maksimuma çatıb. Türkiyə tərəfindən mənbədə su anbarları tikilərək bu çayların suyunun daha çoxunun istifadə olunması Suriya və İraqın ciddi etirazlarına səbəb olub. Dünyanın başqa yerlərind də artıq belə münaqişələr müşahidə olunur.

Ölkələr həddindən artıq miqdarda su istifadə etdikcə iqtisadiyyata da təsir edir. Su qıtlığı və su müharibələri qlobal iqtisadi artımı sürətlə azaldacaq, bu da ərzaq və digər məhsulların qiymətlərini xeyli artıracaq.

Su böhranından təsirlənən ərazilərdə insanların kifayət qədər su təchizatı olan yeni yerlərə miqrasiya etməsi gözlənilir. Burada problem ondan ibarətdir ki, bir ərazi daha sıxlaşdıqca, oradakı su ehtiyatları sürətlə tükənəcək. Buna görə də, daha az su böhranı yaşayan ölkələr çox güman ki, miqrantların gəlişinin qarşısını alacaqlar.

Bu gün bəzi ölkələr müəyyən su ehtiyatları üzərində öz hüquqlarını bərpa etmək üçün artıq mübarizəyə başlayıblar. Əsas mübarizə transsərhəd çayların və 2 və daha çox ölkəyə aid olan göllərin üzərində gedir. 2050-ci ilədək su müharibəsi ehtimalı 70% olaraq qiymətləndirilir. Suya sahib olmaq üçün mübarizə aparan ölkələr arasında gərginliyin artması qlobal təhlükəsizliyin təhlükəli həddə çatmasına səbəb ola bilər.

### Çıxış yolu nədir?

Yeni və qənaətcil suvarma texnologiyaları su tutumlu məhsulların quraq yerlərdə becərilməsinə imkan verdi. Bura Hindistanda şəkər qamışı və düyü, Çində taxıl və Şimali Amerikanın cənubundakı Böyük Düzənliklərdə qarğıdalı becərilməsi daxildir.

Su qıtlığını həll etmək üçün beynəlxalq təşkilatların heç bir ciddi həll yolu təklifi yoxdur. Bəzi işlər var- suyun təkrar emalı və qorunması üçün texnoloji irəliləyişlər edilir. Bu həllərin qlobal su qıtlığı ilə bağlı müsbət irəliləyiş əldə etmək üçün kifayət edib-etməyəcəyi hələlik bəlli deyil.

Dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı bəzi ölkələrdə zavodlar fəaliyyət göstərir, lakin bu suyun əldə olunması çox baha başa gəlir və əhali üçün ciddi xərclərə səbəb ola bilər.

İndiyədək yüzlərlə ölkədən nümayəndələr qlobal iqlim dəyişikliyi riskləri ilə mübarizə üçün mümkün tədbirlərin müzakirə edildiyi iqlim sammitlərində iştirak ediblər. Lakin hələlik bu sahədə ciddi beynəlxalq razılaşma əldə olunmayıb.

Su böhranı beynəlxalq təşkilatlar və siyasi diplomatlar tərəfindən təcili müzakirə edilməli və birgə qərar verilməli olan məsələdir. Bu böhran davam edərsə, çox güman ki, dünyada qlobal qarşıdurmalar baş verəcək. Problemi yalnız qabaqcıl, strateji həllər ilə yavaşlatmaq və ya dayandırmaq olar. Su ehtiyatları bol olan ölkələr öz sularını başqa ölkələrlə bölüşməlidirlər. Ən əsası həm sənaye və təsərrüfatda, həm də əhali istehlakında su israfının qarşısı alınmalıdır. Eyni zamanda qənaətcil texnologiyalara keçilməlidir.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
24 noyabr
2024-cü il

# Dərmanları soyuducuda saxlamaq olarmı? - rusiyalı alim detalları açıqladı



***Rusiyalı alim, kimya elmləri namizədi Aleksey Panov dərmanları harda saxlamaq barədə danışıb. O bildirib ki, dərmanları evdə xüsusi yerdə, xüsusi şəraitdə saxlamaq lazımdır. Bəziləri mətbəx, bəziləri hamam şkaflarına yığır, bəziləri soyuducuya qoyur.***

"Dərmanların saxlanması şəraiti onların keyfiyyətinə, effektinə təsir edir. Dərmanları hamam otağında saxladıqda yüksək rütubət dərman formalarını dağıda bilər. Mətbəxdə isə yüksək hərarət, sobanın istiliyinin tərkibi dəyişir. Optimal yer soyuducudur, amma orda xüsusi konteynerdə saxlanmalıdır ki, qoxulu və rütubətli ərzaq məhsulları ilə təmasda olmasın. Diqqət yetirin ki, dərman qutusu, qablaşması pozulmasın, əzilməsin, qapaq açıq qalmasın. Elə dərmanlar var ki, tərkibindəki maddələr işıq, hərarət, rütubətə həssasdır. Bəzi vitamin və antibiotiklər UVÇ şüalarının təsirindən parçalanır. Ona görə dərmanları qaranlıq, quru, sərin yerdə saxlamaq lazımdır. Dərmanları soyuducuda saxlasaz da, müddəti bitmiş dərmanı içməyin", - Panov qeyd edib.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Messi: "Barselona üçün çox darıxıram"



"İnter Mayami"nin hücumçusu Lionel Messi "Barselona"da oynadığı vaxtları xatırlayıb. QOL.az xəbər verir ki, 37 yaşlı forvard Barselona şəhəri üçün darıxdığını deyib: "Gələcəkdə Barselonaya qayıtmağı planlaşdırırıq. Uşaqlar, həyat yoldaşım - hamımız Barselona üçün çox darıxırıq. Mən bütün həyatım boyu Barselonada yaşamışam. Özümü Barselonalı kimi hiss edirəm və bu şəhər üçün çox darıxıram. Həyatın sizi hara aparacağını bilmirsiniz. Amma bizim niyyətimiz Barselonada yaşamaqdır, çünki bura bizim evimizdir".

Qeyd edək ki, Messi 2004-2021-ci illərdə "Barselona"nın əsas komandasında oynayıb. O, 2023-cü ilin yayından "İnter Mayami"nin formasını geyinir.

# Azərbaycanlı Türkiyədə 70 kiloqram qızılla tutuldu - ŞOK!

İstanbulun Sarıyer rayonunda ticarət mərkəzlərindən birinin qarşısında polis tərəfindən saxlanılan şəxsin üzərində 70 kiloqram qızıl aşkarlanıb. Hadisə ilə bağlı araşdırmalar davam edir. Bu barədə NTV.com.tr yazıb. Məlumatda deyilir ki, İstanbul Prokurorluğunun təlimatı əsasında Qaçaqmalçılıq Cinayətləri ilə Mübarizə Şöbəsinin əməkdaşları Sarıyerdə xüsusi əməliyyat həyata keçiriblər. Əməliyyat zamanı Azərbaycan əsilli olduğu bildirilən M.G.Ş. adlı şübhəli şəxs taksidə saxlanılıb.

Axtarış zamanı şübhəlinin üzərində 70 kiloqram qızıl tapılıb. Şübhəli M.G.Ş. qızılların ona məxsus olduğunu iddia edərək diplomat statusuna malik olduğunu bildirib. Lakin bu iddiaların həqiqətə uyğun olub-olmadığı hələlik təsdiqlənməyib.

Hazırda məsələ ilə bağlı məhkəmə prosesi davam edir. Şübhəlinin qızılları necə əldə etdiyi və onların qaçaqmal olub-olmadığı araşdırılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700